Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 293 (8020) CÜMƏ AXŞAMI, 27 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Təcrübəli və uzaqgörən siyasi xadim, həqiqi lider

## Vladimir Putinin təbriki İlham Əliyevin dünyadakı yüksək nüfuzunun növbəti təsdiqidir

Bu günlərdə Prezident İlham Əliyevin ünvanına doğum günü ilə əlaqədar təbriklər gəlməkdə davam edir. Dövlət başçısını təbrik edənlər kifayət qədər çoxdur. Onların arasında dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin, siyasi-ictimai, o cümlədən din xadimlərinin, elm adamlarının, iqtisadçıların səmimi təbriklərini görmək mümkündür. Hər bir təbrik Prezident İlham Əliyevin şəxsiyyətinə olan yüksək ehtiramdan, dövlət başçısının sayılıb-seçilən siyasi xadim olmasından xəbər verir.

### Rusiya Prezidenti hər kəsi təbrik etmir

Prezident İlham Əliyevi təbrik edənlər arasında Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də var. Diqqəti çəkən məqam odur ki, Vladimir Putin həm də İlham Əliyevi ilk təbrik edənlərdəndir. İlk növbədə bu faktın özü Azərbaycan Prezidentinin dövlət başçıları arasındakı yüksək nüfuzunun ən bariz təsdiqidir. Rusiya kimi supergücün rəhbərinin bu diqqətini başqa cür dəyərləndirmək də mümkün deyil. Bu yerdə onu xatırladaq ki, Rusiya Prezidenti hətta seçkilərdə qələbə qazanan hər dövlət və ya hökumət başçısını təbrik etmir.

Azərbaycan Prezidentinə doğum günü münasibətilə səmimi təbriklərini çatdıran Vladimir Putinin məktubunda yazılır: “Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız”. Əlbəttə, Rusiya kimi beynəlxalq münasibətlərdə özünün xüsusi yeri və ağır çəkisi olan bir dövlətin rəhbərinin Prezident İlham Əliyevi təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi xarakterizə etməsi olduqca qürurvericidir. Vladimir Putin kifayət qədər təcrübəli rəhbər və siyasətçidir. Elə buna görə də reallıqdan çıxış edərək hər dövlət başçısı və hər siyasi xadim haqqında bu cür fikirlər işlətmir. Eyni zamanda böyük dövlətin başçısı olması və yüksək nüfuzu bir çox hallarda onun məsafə saxlamasını şərtləndirir. Lakin Azərbaycan Prezidenti İlham Əliyevə münasibətdə Vladimir Putinin yanaşması tamamilə fərqlidir. Və bu yanaşma ilk növbədə dövlət başçıları arasındakı səmimiyyətə, Vladimir Putinin Azərbaycan Prezidentinin nüfuzuna və şəxsiyyətinə olan yüksək ehtiramına əsaslanır.

Eyni zamanda Azərbaycanın inkişafı, müstəqil siyasəti, beynəlxalq məsələlərdəki qətiyyətli mövqeyi və Rusiya ilə əlaqələrə xüsusi diqqətlə yanaşması Vladimir Putinin qənaətini formalaşdıran əsas məqamlardır. Məlumdur ki, ölkənin inkişafını, nüfuzunu, dünyada qazandığı etimadı və digər bu kimi xüsusiyyətlərini göstərən cəhətlərdən biri onun yeritdiyi siyasətin məzmun və mahiyyətidir. Hər bir ölkə dünya birliyinin subyekti olaraq həm özünün milli maraqlarına cavab verən, həm də müstəqil siyasət həyata keçirmək istəyir. Amma heç də hamısı buna nail ola bilmir. Prezident İlham Əliyev isə lider qətiyyəti ilə Azərbaycanın tamamilə müstəqil, eyni zamanda beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yeridir. Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Uğurla reallaşan bu siyasətin nəticəsi olaraq dünya birliyi Azərbaycana və onun Prezidentinə böyük hörmət və rəğbətlə yanaşır. Və bu rəğbət və ehtiram Vladimir Putinin İlham Əliyevə təbrikinin ilk sətirlərindən aydın görünür.

### Rusiyanın Cənubi Qafqazda əsas tərəfdaşı Azərbaycandır

Qeyd etdiyimiz kimi, Vladimir Putin təcrübəli siyasətçidir. Ona görə kimin münasibətlərdə səmimi və kimin qeyri-səmimi olduğunu da qiymətləndirməyi bacarır. Bu mənada onun təbrikində İlham Əliyevə xitabən yer alan “Dövlətlərimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfəniz əvəzsizdir” ifadəsi isə Azərbaycan Prezidentinin Rusiya ilə münasibətlərdəki səmimiyyətinə və tərəfdaşlıq əlaqələrinin inkişafındakı qətiyyətinə verilən səmimi qiymətdir. Bununla yanaşı, bu sözləri ilə Vladimir Putin Azərbaycan-Rusiya münasibətlərinin strateji səviyyəyə yüksəlməsini növbəti dəfə bəyan etmiş oldu.

Azərbaycanla Rusiya arasında əlaqələr son dövrlərdə daha da möhkəmlənən dövlətlərarası münasibətlərə, dostluğa, mehriban qonşuluğa əsaslanır.

Ardı 5-ci səh.



# Prezident İlham Əliyevdən daha bir töhfə

## Vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək diqqət və qayğı prioritetdir

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri Dairəvi avtomobil yolunu Şərifzadə küçəsi ilə birləşdirən yeni yolun, həmçinin Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışında iştirak edib, agentliyin yeni yaşayış kompleksinin təməlini qoyublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yolda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edək ki, bu yolun inşası Prezident İlham Əliyevin 2018-ci ilin yanvarında imzaladığı sərəncama əsasən aparılıb. Bu ilin fevral ayında tikintisinə başlanılan yeni yolun uzunluğu 1310, eni 18,5 metrdir. Yol birinci texniki dərəcəyə uyğun inşa edilib və 4 hərəkət zolağından ibarətdir.

Tikinti layihəsinə uyğun olaraq yeni yol yatağı inşa edilib. Yolun tikintisi zamanı elektrik, rabitə, qaz xətləri dəyişdirilib, transformator məntəqələri köçürülərək yenidən tikilib. Yolboyu işıqlandırma sistemi, yol nişanları, göstərici lövhələr quraşdırılıb. Bu yolun inşası nəticəsində Bakı Dairəvi avtomobil yolu ilə Abbas Mirzə Şərifzadə küçəsi arasında yeni bağlantı yaranıb. Beləliklə, nəqliyyat vasitələri Badamdar şosesindən istifadə etmədən birbaşa Şərifzadə küçəsinə və Bakı Dairəvi avtomobil yoluna çıxa biləcək. Bakı Dairəvi avtomobil yolundan isə nəqliyyat vasitələri istər Ələt-Qazax, istərsə də Biləcəri-Sumqayıt istiqamətlərinə rahat hərəkət edə bilər. Bu isə öz növbəsində, sürücülərin və sərnişinlərin əlavə yol qət etmədən və vaxt itkisi olmadan ünvana çatmasına, Badamdar şosesi, “20 Yanvar” dairəsi və “Şamaxı yolu” deyilən ərazidə xüsusən günün pik saatlarında nəqliyyat sıxlığının azalmasına müsbət təsir edəcək. Bundan başqa, Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin sakinlərinin rahat hərəkətinin təmin edilməsi, onların şəhərin müxtəlif istiqamətlərinə çıxışı baxımından da yeni yol əhəmiyyəti ilə seçilir.

Ardı 2-ci səh.



# Tərəqqi təhsildən başlayır

**“Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik”**

**İlham ƏLİYEV**

Tarixin bütün dövrlərində təhsil insanların həyatında müstəsna əhəmiyyət kəsb etmişdir. Müasir dövrün qlobal çağırışları isə bu əhəmiyyəti daha da artıraraq sahənin həlli vacib olan əksər məsələlərini dövlətin və cəmiyyətin bir nömrəli prioritetinə çevirir. Çünki müasir dövrdə təhsilin inkişafı istənilən ölkədə əhalinin rifahının yaxşılaşdırılmasının, fərdin həyatının daha yüksək səviyyədə qurulmasının alternativsiz təminatıdır. Bu gün insanlar məhz təhsilin vasitəsi ilə texnologiyaları çevik şəkildə mənimsəyir, əmək bazarında layiqli yer tutur və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı qazanırlar.

Prezident İlham Əliyevin rəhbərlik fəaliyyətinin hər dönəmində imzaladığı sənədlər içərisində təhsillə bağlı sərəncamların çoxluğu bu sahənin üstün istiqamət daşıdığından soraq verir.

Ardı 6-cı səh.

# Memarlıq abidəsi - incəsənətin tarixi səsi

## 3 korpus, 18 min incəsənət incisi

### Bakının tarixi yadigarlarından biri...

Maddi-mənəvi dəyərlər hər bir xalqın varlığını təsdiq edən əvəzolunmaz sərvətlərdəndir. Minilliklər boyu formalaşan bu incə sənət əsərlərinin qorunub saxlanmasında muzeylərin əvəzsiz rolu olub. Təbii ki, muzeylərə qədər də onlar nəsillərdən nəsillərə yadigar qalıblar. Çünki xalqa məxsus olduqları üçün qorunublar, baxmayaraq ki, işğalçılıq, təcavüz, münaqişə və müharibələr onların sıradan çıxmasına, yaxud özgəninkiləşdirilməsinə səbəb olublar. Bunların qorunmasında muzeylərin əhəmiyyəti isə çox böyükdür.

Azərbaycan xalqına məxsus milli sərvətlərin qorunmasında muzeylərin daşıdığı missiya daim dövlət tərəfindən yüksək qiymətləndirilib. Belə ünvanlar respublikamızda az deyil. Onlardan biri də, dövlət başçısının göstərişi ilə əsaslı təmir edilən Azərbaycan Milli İncəsənət Muzeyidir.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonrakı açılışında binada yaradılan şəraitlə tanış olublar. Mədəniyyət naziri Əbülfəs Qarayev dövlət başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verib. Nazir bildirib ki, bu incəsənət məbədinin yaradılmasının və fəaliyyətinin maraqlı tarixi var. XIX əsrdə, daha doğrusu, 1891-1893-cü illərdə Bakının baş memarı Nikolay fon der Nonnenin layihəsi əsasında inşa edilib. Muzey iki yanaşı tarixi binada yerləşirdi.

Ardı 7-ci səh.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatına görə, 2018-ci il yanvarın 1-dən dekabrın 1-dək “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarının hasilatından 8 milyard 960 milyon, o cümlədən “Şahdəniz”dən çıxarılan kondensatın satışından 222 milyon ABŞ dolları həcmində gəlir əldə olunub. Bu da sözügedən yataqlardan hasilatın sabit şəkildə davam etdiyini təsdiqləyir.



## Prezident İlham Əliyev: "Azərbaycanda neft rifah, inkişaf, sabitlik, güc gətirir"

# AÇG-nin hasilatı davam edir, gəlirləri artır

Hazırda AÇG yataqlar blokunda fəaliyyət göstərən 8 platformanın hamısı ahəngdar və təhlükəsiz işləyir. Bu qurğuların 6-sı hasilat, 2-si texnoloji platformadır. AÇG-nin operatoru BP şirkəti 2018-ci ilin ilk üç rübü ərzində layihə çərçivəsində 161 milyon barel (22 milyon ton) neft hasil olunduğunu bildirib. Bu da AÇG-dən gündəlik orta hasilatın 588 min barel təşkil etdiyini göstərir. Platformaların gündəlik hasilat göstəriciləri isə belədir: “Çıraq” - 47 min, “Mərkəzi Azəri” - 156 min, “Qərbi Azəri” - 126 min, “Şərqi Azəri” - 97 min, “Dərinsulu Günəşli” - 105 min və “Qərbi Çıraq” - 57 min barel.

AÇG-də ümumilikdə 112 neft hasilat quyusu, 53 qaz və su injektor quyusu istismar olunur.

Ardı 5-ci səh.

# Prezident İlham Əliyevdən daha bir töhfə

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonra xatirə şəkli çəkdirildi.

* * *

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışında iştirak etdilər.

Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov görülən işlər barədə məlumat verdi. Qeyd edək ki, layihələndirmə zamanı komplekslərdə həyətyanı sahələrin, uşaq meydançalarının olmasına, ərazilərin yaşıllaşdırılması və abadlaşdırılmasına xüsusi diqqət yetirilir. Açılışı olan Yasamal yaşayış kompleksinin ümumi sahəsi 11,6 hektardır. 2016-cı ilin dekabrında kompleksin ilk doqquzmərtəbəli yaşayış binasının və ərazidə yerləşən ümumtəhsil məktəbinin binasının təməli qoyulub. Ərazidə planlaşdırma sənədi üzrə 29 yaşayış binası inşa olunub. Bu binalardan 12-si 12 mərtəbəli, 17-si 9 mərtəbəlidir. Kompleksdə mənzillərin ümumi sayı 1843 ədəddir. Burada 324 birotaqlı, 1052 ikiotaqlı, 467 üçotaqlı mənzil var. Birotaqlı mənzillərin sahəsi 34, ikiotaqlı mənzillərin sahəsi 58, üçotaqlı mənzillərin sahəsi isə 71 kvadratmetrə yaxındır. Mənzillər tam təmirli, mətbəx mebeli və qaz plitəsi, fərdi kombi sistemi ilə təchiz olunmuş vəziyyətdə vətəndaşlara təklif edilir. Kompleksin baş planı üzrə 5 binada bu ilin sentyabrında "Elektron hökumət" portalı üzərindən "Güzəştli mənzil" sistemi vasitəsilə 324 mənzil satışa çıxarılıb. Bu mənzillərdən 278-nin alqı-satqısı artıq başa çatıb.

Onu da deyək ki, mənzillərin təmiri və kompleksin tikintisində istifadə olunan inşaat materiallarının 95 faizi yerli istehsaldır. İnşaat işləri zamanı burada 1500-ə yaxın işçi çalışıb.

Kompleksin nəqliyyat infrastrukturunun yaradılması da diqqət mərkəzindədir. Ərazi paytaxtın əsas nəqliyyat şəbəkəsinə və metronun "İnşaatçılar" stansiyasına yaxındır. Bakı Nəqliyyat Agentliyi tərəfindən yaşayış kompleksinə şəhərin 4 müxtəlif istiqamətində marşrut xətlərinin açılması nəzərdə tutulub.

Bu layihənin icrası Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək diqqət və qayğı ilə yanaşmasının növbəti təzahürüdür. Vətəndaşların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən müasir memarlıq üslubunda çoxmənzilli yaşayış binalarının tikintisini təmin etmək baxımından bu layihə əhəmiyyəti ilə seçilir.













* * *

Kompleksin ərazisində 161 saylı tam orta məktəbin binası da inşa edilib.

Dövlət başçısı və birinci xanım burada yaradılan şəraitlə tanış oldular.

Təhsil naziri Ceyhun Bayramov məlumat verdi ki, 960 şagird yerlik tam orta məktəbdə 36 sinif otağı var. Onlardan 15-i ibtidai, 21-i isə yuxarı sinif şagirdləri üçündür. Siniflərin hamısı zəruri tədris avadanlığı ilə təchiz olunub. Burada, həmçinin 6 tədris laboratoriyası şagirdlərin istifadəsinə veriləcək.

Bu təhsil ocağında yaradılan şərait son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrinin əyani göstəricisidir. Bütün bunlar Azərbaycanda təhsil sferasının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnib. Yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir. Bütün bu işlər həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Bu da, təsadüfi deyil. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin müasir, intellektual və savadlı yetişməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar, o cümlədən yeni-yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrində yeni korpusların tikilməsi və əsaslı təmiri mühüm əhəmiyyət kəsb edir.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində inşa edilən 240 yerlik uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, bağçadakı qrup, məşğələ və oyun otaqları zəruri avadanlıqla təchiz edilib. Uşaqların gün ərzində dolğun və keyfiyyətli qidalanması üçün burada yeməkxana yaradılıb. Bağçada yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Belə müasir körpələr evi-uşaq bağçalarının inşasına Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq və yaşıllıq işləri görülüb. Həyətdə uşaqların əylənməsi üçün də müxtəlif attraksionlar quraşdırılıb.

* * *

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni yaşayış kompleksinin ümumi sahəsi 15,4 hektar olacaq növbəti mərhələsinin təməlqoyma mərasimində iştirak etdilər.

Bildirildi ki, kompleksdə 40 yaşayış binasının inşası nəzərdə tutulub. Onlardan 22-si 9 mərtəbəli, 18-i 12 mərtəbəli olacaq. Bu kompleksdə 160 birotaqlı, 114 studio tipli, 674 ikiotaqlı, 1128 üçotaqlı, 126 dördotaqlı mənzil tikiləcək. Binalar üzrə mənzillərin ümumi sayı 2200-dən çoxdur. Bu mənzillər də tam təmirli, mətbəx mebeli ilə təchiz olunmuş vəziyyətdə vətəndaşlara təklif ediləcək.

Prezident İlham Əliyev yeni yaşayış kompleksinin təməlini qoydu.

Yaşayış binaları ilə yanaşı, ərazidə sosial-məişət obyektləri, uşaq oyun meydançaları, 3 uşaq bağçası, 1200 şagird yerlik tam orta məktəb binasının inşası da nəzərdə tutulur. Yaşayış kompleksi üzrə bütün lazımi infrastruktur yaradılacaq.

# Sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələri yaradılır



Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yasamal rayonunun Yeni Yasamal yaşayış massivi, Məhəmməd Xiyabani küçəsində yerləşən istirahət parkında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov parkda aparılan yenidənqurma və abadlıq işləri barədə məlumat verdi.

Bildirildi ki, bu istirahət parkı müasir səviyyədə yenidən qurulub. Ümumilikdə 1,7 hektar ərazidə abadlıq işləri aparılıb, 9 min kvadratmetr sahədə yaşıllıq salınıb. Parkda suvarma və işıqlandırma sistemləri quraşdırılıb, gəzinti meydançaları salınıb, oturacaqlar qoyulub, dekorativ hasar çəkilib. Bu istirahət məkanında çay evi, kafe, gənclər evi, internet klub, qocalar evi inşa olunub. Burada, həmçinin idman və uşaq əyləncə qurğuları və fəvvarə də quraşdırılıb.

Prezident İlham Əliyevin tapşırığı ilə son dövrlərdə Bakı şəhərində parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeni park, xiyaban və istirahət guşələri yaradılır. Bütün bunlar sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin davamıdır. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirmək üçün görülən məqsədyönlü işlərdəndir. Yenidən qurulan bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi baxımından olduqca əhəmiyyətlidir. Yeni park və xiyabanların salınması ölkəmizdə aparılan geniş abadlıq-quruculuq işlərinin daha bir nümunəsidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər ardıcıl şəkildə və yüksək keyfiyyətlə davam etdirilir.



# Tovuz rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tovuz rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.52.4-cü yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2018-ci il*

# "Bakı Ağ şəhər" layihəsinin həyata keçirilməsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı şəhəri ərazisində reallaşdırılan ən böyük tikinti layihələrindən olan "Bakı Ağ şəhər" layihəsinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Sadıxov Ruslan Oqtay oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Nütvəli İskəndər oğlu
Abdullayev Fəzail Cahangir oğlu
Çernova Yelena Viktorovna
Dadaşov Etibar Mürşüd oğlu
Quliyev Elxan Abubəkir oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!
Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Bu əlamətdar gündə qeyd etmək xoşdur ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə irəliləyiş və tərəqqi əldə etmiş, eləcə də siyasi, iqtisadi və mədəni sahələrdə yüksək inkişaf dinamikasına nail olmuşdur. İcazə verin, bir daha bildirim ki, Gürcüstan Azərbaycanla dostluq əlaqələrinin və qarşılıqlı faydalı münasibətlərin inkişafına çox böyük önəm verir. Əminəm ki, Gürcüstan və Azərbaycan arasında olan uzunmüddətli dostluq və strateji tərəfdaşlıq birgə səylərimizlə ölkələrimizin ortaq maraqları naminə gələcəkdə daha da möhkəmlənəcək və dərinləşəcək.

Fürsətdən istifadə edərək Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istərdim.

Zati-aliləri, xahiş edirəm Sizə olan ən yüksək ehtiramımı qəbul edəsiniz. Sizə xoşbəxtlik, möhkəm cansağlığı və dost Azərbaycan xalqının əmin-amanlığı və rifahı naminə önəmli işlərinizdə daha böyük müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı, seçdiyiniz yolda uzun illər səmərəli fəaliyyət, yeni böyük uğurlar, xoşbəxtlik, ailənizə firavanlıq diləklərimi qəbul edin.

Əminəm ki, Sizin həm ölkədə, həm də xaricdə yürütdüyünüz ölçülüb-biçilmiş, düşünülmüş siyasət bundan sonra da Azərbaycanın və onun xalqının firavanlığına xidmət edəcək.

Fürsətdən istifadə edərək qəti əmin olduğumu bildirirəm ki, Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə birgə səylərimizlə bundan sonra da dərinləşəcək.

Hörmətli cənab Prezident, Sizi və bütün ailənizi əlamətdar şəxsi bayramınız münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə yüksək ehtiramımı qəbul edin.

*Dərin hörmətlə,*

***İqor DODON,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan təbrik edirəm.

Sizə ali dövləti vəzifənizdə bundan sonra da səmərəli fəaliyyət, möhkəm cansağlığı, yaradıcılıq ilhamı, gümrahlıq və firavanlıq arzu edirəm.

Fürsətdən istifadə edib, Rusiya və Azərbaycanın təhlükəsizliyinin təmin edilməsi və milli maraqların müdafiəsi, MDB məkanında sülhün və sabitliyin qorunub saxlanılması üçün ölkələrimizin xüsusi xidmətləri arasında qarşılıqlı əlaqələrin inkişafına göstərdiyiniz daimi diqqət və dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru***

❖ ❖ ❖

Möhtərəm Prezident!
Doğum gününüz münasibətilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adından və şəxsən öz adımdan Sizi ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi çatdırıram.

Liderliyiniz və uğurlu siyasətiniz sayəsində Azərbaycan Respublikası regionun ən inkişaf etmiş ölkəsinə çevrilib və hər keçən gün dünya səhnəsində yerini və nüfuzunu daha da möhkəmləndirir.

Eyni zamanda, Türk Şurasına Sizin daimi dəstəyinizi məmnuniyyətlə qeyd edir və vurğulamaq istərdim ki, verdiyiniz mühüm töhfələr nəticəsində türkdilli dövlətlər arasında çoxtərəfli əlaqələrimiz yeni mərhələyə qədəm qoyub.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, firavanlıq, ailə səadəti diləyir və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Bağdad AMREYEV,***
***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Doğum gününüz münasibətilə Sizi Lyublyana şəhər rəhbərliyi adından və şəxsən öz adımdan təbrik edirəm. Həyatınız sevincli və xoşbəxt günlərlə dolu olsun. Sizə və doğmalarınıza unudulmaz anlar, xoşbəxtlik, möhkəm cansağlığı diləyirəm.

*Ən xoş arzularla,*

***Zoran YANKOVİÇ,***
***Sloveniyanın Lyublyana şəhərinin meri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin sayənizdə Azərbaycanın beynəlxalq əlaqələri genişlənir, beynəlxalq arenada vətənimizin mövqeləri möhkəmlənir, Azərbaycan iqtisadiyyatının inkişafı üçün bir sıra mühüm investisiya layihələri həyata keçirilir. Dövlət qurumlarında da mühüm dəyişikliklər baş verir, korrupsiyaya qarşı hər sahədə mübarizə gedir, dövlət idarəçiliyi sistemi təkmilləşdirilir.

Hələ görüləsi işlər çoxdur, lakin biz əminik ki, Sizin bütün ideyalarınızı həyata keçirməyə gücünüz çatacaq.

Hörmətli İlham Heydər oğlu, icazə verin, bu əlamətdar gündə Sizə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Azərbaycan Klubunun bütün üzvləri adından ən xoş arzularımı bildirim. Sizə möhkəm cansağlığı, etibarlı və sədaqətli həmməsləklər və böyük səadət diləyirəm.

*Ən xoş arzularla,*

***Murad MƏMMƏDOV,***
***Rusiya Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Azərbaycan Klubunun sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Doğum gününüz münasibətilə "Sankt-Peterburqun və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatı Şurasının bütün üzvləri adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin əzmkarlıqla qəbul etdiyiniz qərarlar sayəsində Azərbaycan Respublikasının müasir simasını formalaşdıran bir sıra çox mühüm dəyişikliklər həyata keçirilib. Siz dövlət başçısı olduğunuz müddətdə Azərbaycanda milyonlarla həmvətəninizin səmimi rəğbətini və hörmətini, habelə xaricdə böyük nüfuz qazanmısınız. Sizi, haqlı olaraq güclü lider, müdrik siyasi xadim və istedadlı dövlət xadimi nümunəsi hesab edirlər. Rusiyada Sizi dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Rusiya-Azərbaycan əməkdaşlığının bütün kompleksinin genişləndirilməsinin davamlı tərəfdarı kimi tanıyırlar. Şəxsən Sizin dəstəyinizlə energetika, sənaye və infrastruktur sahələrində iri müştərək layihələr həyata keçirilir, ölkələrimizin ictimai strukturları və biznes cəmiyyətləri xətti ilə intensiv dialoq aparılır.

Bu il dekabrın 6-da Sankt-Peterburqda Sizinlə görüşümüzü səmimiyyətlə xatırlayıram. Etimada əsaslanan maraqlı ünsiyyətimizi davam etdirməyə şad olaram, bunu özümə şərəf sayaram.

Hörmətli cənab Prezident, bu əlamətdar gündə Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, sülh və firavanlıq, Azərbaycan dövlətinin və xalqının rifahı naminə yeni uğurlar, zəfərlər arzu edirəm.

*Hörmətlə,*

***Vaqif MƏMİŞOV,***
***"Sankt-Peterburqun və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Möhtərəm Prezident!
Sizi doğum gününüz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram. Xaricdə ictimai, elmi və lobbiçilik fəaliyyəti göstərən vətənpərvər soydaşlarımız əmindirlər ki, Sizin müdrik siyasətiniz nəticəsində vətənimiz daha böyük uğurlar əldə edəcək, birliyimiz güclənəcək.

2001-ci ildə Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının I qurultayında ulu öndərimizin bütün azərbaycanlıları birliyə çağırması, tarixi vətənimizi unutmamağımızı, zəngin və qədim mədəniyyətimizi ləyaqətlə təmsil etməyimizi, Azərbaycan dilinin mükəmməl öyrənilməsi və öyrədilməsini tövsiyə etməsi soydaşlarımızı milli fikir ətrafında birləşdirən ən güclü amillərdən biri oldu. Onun Gülüstan sarayında qurultay iştirakçılarına söylədiyi "İnsan Vətəndə doğma torpağından, qürbətdə isə birliyindən qüvvət alır" müdrik kəlamının dərin mənası və böyük əhəmiyyəti var.

*Hörmətlə,*

***Fərhad TURANLI,***
***Azərbaycanlı və Ukraynalı Ziyalılar Assambleyasının sədri, tarix elmləri doktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!
Sizi doğum gününüz münasibətilə "Azərbaycan-Ukrayna" Beynəlxalq Alyansının adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Sizə cansağlığı, xoşbəxtlik, firavanlıq, Azərbaycan xalqının rifahı naminə çoxşaxəli və məsul fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Elmar MƏMMƏDOV,***
***Kiyev şəhərindən "Azərbaycan-Ukrayna" Beynəlxalq Alyansının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!
Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoş günlər, ailə səadəti və suveren Azərbaycanın firavanlığı naminə yeni zəfərlər diləyirəm.

Hörmətli cənab Prezident, bu gün Gürcüstan və Azərbaycan arasındakı dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətləri biz Gürcüstan azərbaycanlılarını, eyni zamanda, gürcü ictimaiyyətini hədsiz dərəcədə sevindirir. Təməli dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycanın qüdrətlənməsi və tərəqqisi, eyni zamanda, dünyada və regionda etibarlı tərəfdaş kimi qəbul olunması Sizin adınızla bağlıdır. Gürcüstanda yaşayan minlərlə azərbaycanlı gənc Sizin müdrik siyasətiniz sayəsində Tbilisinin ali təhsil müəssisələrində təhsil alır və müasir gürcü cəmiyyətinə inteqrasiya edir.

Möhtərəm cənab Prezident, Odlar Yurdu Azərbaycanımızda Sizin yürütdüyünüz sülh və inkişaf siyasətini, tolerantlıq, multikulturalizm dəyərlərini, Azərbaycan həqiqətlərini gürcü ictimaiyyətinə və müasir gürcü gəncliyinə yüksək səviyyədə çatdırırıq.

Hörmətli cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Ulu Tanrı Sizi, ailənizi və Odlar Yurdu Azərbaycanımızı qorusun!

*Dərin hörmət və ehtiramla,*

***Məhəbbət İMANOV,***
***Gürcüstanın Bolnisi şəhərindəki "Borçalı İrəli" İctimai Birliyinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Bu gün Azərbaycan Sizin müdrik rəhbərliyinizlə həyatın və cəmiyyətin bütün cəhətlərinin modernləşdirilməsi yolunda dinamik surətdə irəliləyir. Sizin zəngin siyasi təcrübəniz və yüksək peşəkarlığınız Azərbaycan xalqının rifahı naminə mürəkkəb məsələləri qətiyyətlə və ardıcıl olaraq həll etməyə imkan verir. Siz dünya arenasında uzaqgörən siyasətiniz sayəsində Azərbaycanın milli mənafelərini xüsusi bacarıqla, qətiyyətlə müdafiə edirsiniz. Bu, regional və beynəlxalq gündəlikdəki ən mühüm məsələlərin həllində fəal rol oynayır.

Cənab Prezident, icazə verin, fürsətdən istifadə edərək Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni, 2019-cu il münasibətilə təbrik edim, Sizə möhkəm cansağlığı və Azərbaycan Respublikasının rifahı naminə yeni yüksək nailiyyətlər diləyim.

*Hörmətlə,*

***Çingiz İSAYEV,***
***Rusiya Federasiyasının "Perm Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!
Doğum gününüz münasibətilə Sizi Voronejdəki "Xəzər Azərbaycan İcması" vilayət ictimai təşkilatı adından ürəkdən təbrik edirəm, Sizə səmimi arzularımı bildirirəm.

Azərbaycan Sizin uzaqgörən rəhbərliyinizlə qazandığı nailiyyətlər sayəsində regionun ən çox inkişaf etmiş ölkəsinə çevrilib, öz uğurlarına görə beynəlxalq aləmdə dünya birliyinin fəal üzvü kimi nüfuz qazanıb.

Sizin mühüm töhfənizin və yürütdüyünüz uğurlu siyasətin nəticəsi kimi, dünya azərbaycanlılarının birliyi daha da möhkəmlənir.

Diaspor təşkilatlarına göstərdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı, tükənməz enerji, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar diləyir, bir daha ürəkdən təbrik edirəm. Qoy doğma Azərbaycanın yeni qələbələri naminə bütün planlarınız həyata keçsin!

Fürsətdən istifadə edib Sizi qarşıdan gələn bayramlar - 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

*Hörmətlə,*

***Eldar SADIQOV,***
***Rusiyanın Voronej şəhərindəki "Xəzər Azərbaycan İcması" vilayət ictimai təşkilatının idarə heyətinin sədri***

# Milli Məclisin nümayəndə heyəti İranın Qərbi Azərbaycan vilayətinə səfər edib

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə İranda səfərdə olan parlament nümayəndə heyəti dekabrın 26-da bu ölkənin Qərbi Azərbaycan vilayətinin inzibati mərkəzi - Urmiya şəhərinə səfər edib.



AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri İranın Qərbi Azərbaycan vilayətinin valisi Məhəmməd Mehdi Şəhriyari ilə görüşüb. Görüşdə qarşılıqlı əlaqələrin inkişafı, Azərbaycanın İran ilə sərhədyanı rayonları arasında ticarət əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilib.

Oqtay Əsədov diqqətə çatdırıb ki, bu gün Azərbaycan ilə İran arasındakı münasibətlər özünün inkişaf mərhələsini yaşamaqdadır. Dövlət başçılarının siyasi iradəsi nəticəsində bütün sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurulub. Bu əlaqələrin intensiv inkişafı hər iki ölkənin sərhədyanı regionlarını da əhatə etməlidir. Azərbaycan İranın Qərbi Azərbaycan vilayəti ilə iqtisadi münasibətlərin inkişafında maraqlıdır və bu münasibətləri daha yüksək səviyyəyə çatdırmaq istiqamətində addımlar atmağa hazırdır.

Milli Məclisin Sədri bildirib ki, sərhədyanı rayonların sənaye və ticarət sahələrində əməkdaşlıq etmələri iki ölkənin qarşılıqlı əlaqələrinin inkişafına böyük təkan vermiş olar.

İranın Qərbi Azərbaycan vilayətinin valisi Məhəmməd Mehdi Şəhriyari bildirib ki, rəhbərlik etdiyi region Azərbaycanın sərhədyanı rayonları ilə ticarət əlaqələrinə malikdir. Lakin hər iki ölkənin iqtisadi potensialı bu əlaqələrin daha da intensiv olmasına imkan yaradır.

Rəhbərlik etdiyi regionun İranın iqtisadi cəhətdən inkişaf etmiş vilayəti olduğunu qeyd edən vali kənd təsərrüfatı, əczaçılıq, maşınqayırma və sənayenin digər sahələri üzrə Azərbaycan Respublikası ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Milli Məclisin deputatları İsa Həbibbəyli, Hadi Rəcəbli, Şəmsəddin Hacıyev, Hüseynbala Mirələmov, Eldar İbrahimov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov və İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə görüşdə iştirak ediblər.

Səfər çərçivəsində nümayəndə heyətimiz İranın Qərbi Azərbaycan vilayətinin istehsal və sənaye müəssisələri ilə də tanış olublar.

# Beynəlxalq konfrans keçirilib




Dekabrın 26-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılmasının 100 illiyi ilə əlaqədar "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransdan əvvəl tədbir iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini anaraq abidəsi önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üstünə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman vətən övladlarının məzarları üzərinə gül-çiçək dəstələri, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Konfransda əvvəlcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş film nümayiş etdirilib.

Filmdə 1918-ci il dekabrın 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətində yaradılmış Poçt, Teleqraf və Əmək Nazirliyinin, daha sonra ayrıca qurum kimi formalaşan Əmək Nazirliyinin fəaliyyətindən söz açılır, ulu öndər Heydər Əliyevin ölkəmizdə humanist dəyərlərə, sosial ədalət prinsipinə əsaslanan sosial siyasətin formalaşması və inkişafı istiqamətində mühüm tarixi xidmətləri diqqətə çatdırılır. Həmçinin filmdə Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısından, bu qayğı nəticəsində ölkədə həyata keçirilən və ildən-ilə genişlənən mühüm sosial proqramlardan, aktiv sosial müdafiə və məşğulluq tədbirlərindən bəhs olunur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın yüksək humanizmin təcəssümü olan, sosial müdafiə və reabilitasiya sahələrini də əhatə edən təşəbbüs və layihələri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın həssas qruplara qayğıkeş münasibəti də filmdə əksini tapır.

Konfransı açan Baş nazirin müavini Əli Əhmədov ulu öndər Heydər Əliyevin Azərbaycanda sosial inkişafın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində böyük xidmətlərini qeyd edib. O, ulu öndərin dövlətçilik fəlsəfəsinin əsas xəttini məhz sosial rifah amili təşkil etdiyini, ümummilli liderin Azərbaycanda sosial dövlət ideyasını uğurla gerçəkləşdirdiyini vurğulayıb. Baş nazirin müavini son 15 ildə Prezident İlham Əliyevin ölkəmizin bütün sahələrdə dinamik inkişafını, eyni zamanda, sosial sahədə mühüm irəliləyişləri, sosial müdafiə sisteminin daim güclənməsini uğurla təmin etdiyini bildirib. Baş nazirin müavini sosial rifahın yaxşılaşdırılması istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətini yüksək qiymətləndirib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxış edərək deyib ki, sosial rifahın təminatı hər bir ölkənin ümumi inkişafının əsas göstəricilərindən biridir. Bu mənada ümummilli lider Heydər Əliyevin memarı və qurucusu olduğu, son 15 ildə Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində dünyanın sürətlə inkişaf edən ölkələrindən olan müasir müstəqil Azərbaycan, eyni zamanda, bir sosial dövlət olaraq bu inkişafını özünün güclü sosial siyasətində təcəssüm etdirir.

Nazir Azərbaycan Xalq Cümhuriyyəti hökumətindəki Əmək Nazirliyinin fəaliyyətindən bəhs edib, nazirliyin hələ 100 il bundan öncə bugünkü əmək və sosial müdafiə sistemi üçün aktual olan məsələlərin həlli istiqamətində atdığı addımları qeyd edib. O, 1970-1980-ci illərdə müdrik siyasətçi Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə onun bütün sahələrdə olduğu kimi, sosial sahədə də inkişafı təmin etdiyini, 1993-cü ilin iyununda xalqın çağırışı ilə yenidən respublikamıza rəhbərliyə qayıdışından sonra müstəqil dövlət quruculuğunu uğurla həyata keçirməklə yanaşı, ölkəmizin sosial ədalət prinsipinə, həssas qruplara humanist yanaşmaya əsaslanan uğurlu sosial siyasətini də formalaşdırdığını vurğulayıb. Nazir ulu öndərin müdrik siyasi kursunun, Azərbaycanın etibarlı təməllər üzərində uzunmüddətli inkişafına yol açan strategiyasının bütün istiqamətlər üzrə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və bu gün ölkəmizin dinamik iqtisadi inkişafının güclü sosial siyasətlə tamamlandığını bildirib. Son 15 ildə sosial təminat sisteminin ildən-ilə gücləndiyini və əhatə dairəsinin genişləndiyini bildirən nazir bunun bir nümunəsi kimi, əmək pensiyasının orta aylıq məbləğinin 2003-cü ilə nisbətən 12,1 dəfə artaraq 2018-ci il 1 dekabr tarixinə 222,5 manata, yaşa görə əmək pensiyasının orta aylıq məbləğinin isə 249,5 manata çatdığını deyib. Əlavə edib ki, bu il əmək pensiyalarının maliyyələşməsinə yönəldilən illik vəsaitin həcmi 2003-cü ilə nisbətən 16,7 dəfə artıb. Bu ilin 11 ayında aktiv məşğulluq tədbirləri nəticəsində ötən ilin müvafiq dövrünə nisbətən 9,1 faiz çox olmaqla 50,2 min nəfərin işlə təminatı həyata keçirilib. Gələn il yeni bir istiqamət kimi "İşçinin dostu" proqramına başlanılacaq ki, bu proqram 30 min iş yerinin yaradılmasına imkan verəcək. Dövlət başçısının müvafiq sərəncamına əsasən icra olunan özünüməşğulluq proqramına cəlb olunanların sayı cari ildə 6,5 dəfə artaraq 7800 nəfəri ötüb.

S.Babayev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın sosial müdafiə və reabilitasiya sahələrində aparılan işlərə dəstək məqsədli layihələrindən də bəhs edib.

Vurğulanıb ki, bu gün nazirlik 100 illik yubileyini Prezident İlham Əliyevin təkmil sosial islahatlar proqramının işgüzar ruhunda, əmək, məşğulluq, sosial təminat sahələrində innovativ yanaşmalara əsaslanan mütərəqqi, şəffaf, ədalətli və çevik sistemlərin qurulmasına doğru mühüm addımlarla qeyd edir. Ölkə başçısının sərəncamları ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaradılmasının 100 illiyi münasibətilə və sosial müdafiə sahəsinin inkişafında səmərəli fəaliyyət göstərdiklərinə görə nazirliyin bir qrup əməkdaşının fəxri adla və "Tərəqqi" medalı ilə təltif edilməsi də Prezident İlham Əliyevin bu sahədə çalışan insanların əməyinə yüksək dəyər verdiyini göstərir.

Konfransda çıxış edən Milli Məclis Sədrinin müavini Bahar Muradova bir əsr əvvəl fəaliyyətə başlayan nazirliyin şərəfli yol keçdiyini və öz vəzifə və məsuliyyətlərini layiqincə yerinə yetirdiyini deyib. O, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Nazirliyin əmək resursları və səmərəli məşğulluğun təmin olunmasına diqqət yetirdiyini qeyd edən Bahar Muradova insanların əmək şəraitinin yaxşılaşdırılması, əmək münasibətlərinin standartlara uyğun olması istiqamətində işlər görüldüyünü diqqətə çatdırıb.

İnsan hüquqları üzrə müvəkkil Elmira Süleymanova bu ilin ölkəmiz üçün əlamətdar olduğunu, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirlərin keçirildiyini bildirib. O, gündən-günə inkişaf edən ölkəmizdə insan hüquqlarının qorunmasına, sosial müdafiə sisteminin təkmilləşdirilməsinə xüsusi diqqət yetirildiyini vurğulayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vətəndaşlar ilə daha sıx münasibətdə olduğunu deyən ombudsman qayğıya ehtiyacı olanların və sosial cəhətdən həssas qrupların daim diqqət mərkəzində saxlanıldığını qeyd edib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik, Milli Məclisin deputatı Yaqub Mahmudov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev ölkəmizdə sosial müdafiə sisteminin inkişafına yönəlmiş tədbirlərdən, dövlətin sosial siyasətindən danışıb, nazirliyin fəaliyyətinə uğurlar arzulayıblar.

Sonra nazirliyin strukturlarında uzun illər çalışmış işçilər və "sosial elçilər" təltif olunublar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və KİVDF-nin nazirliyin 100 illiyi ilə əlaqədar birgə keçirdiyi "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri barədə məlumat verib. O bildirib ki, müsabiqəyə təqdim olunmuş 44 yazıdan 11-i ekspertlər tərəfindən yüksək qiymətləndirilərək mükafata layiq görülüb. Bir nəfər birinci, iki nəfər ikinci, üç nəfər üçüncü yeri tutub.

Qalib və mükafatçılara diplom və hədiyyələr təqdim olunub. Beş nəfər isə təşəkkürnamə və həvəsləndirici mükafatla təltif edilib.

Konfrans öz işini "Sosial müdafiə sistemi və onun əsas prioritetləri" və "Əmək bazarı, məşğulluq və əmək münasibətləri" mövzularında sessiyalarla davam etdirib.

Hər iki sessiyada məruzələr dinlənilib və mövzulara uyğun müzakirələr aparılıb.

# Jurnalistlər mükafatlandırıldı





Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib.

Fondun icraçı direktoru Vüqar Səfərli çıxış edərək rəhbərlik etdiyi qurumun gördüyü işlər barədə məlumat verib. Bildirib ki, hər il olduğu kimi, bu il də həm fond tərəfindən, həm də digər dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində ümumilikdə 10 müsabiqə keçirilib və 500-ə yaxın jurnalist mükafatlandırılıb. İl ərzində KİVDF tərəfindən bir sıra layihələr reallaşdırılıb. Fond 2018-ci ildə 33 kütləvi informasiya vasitəsini maliyyələşdirib, Azərbaycan ədəbi dilinin qorunması istiqamətində layihələr həyata keçirib. Hazırkı müsabiqə KİV-ə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqaməti əhatə edib. Müsabiqənin şərtlərinə uyğun olaraq 19 istiqamətin hər biri üzrə 6 yazı müəllifi qalib elan edilib. Ümumilikdə isə 112 jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub. Jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı fond üzərinə düşən vəzifələri uğurla yerinə yetirib. Jurnalistlər üçün tikilən növbəti yaşayış binasının artıq 13-cü mərtəbəsi yekunlaşır. Bütün bu işlər 2019-cu ildə də davam etdiriləcək.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, bu il ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilib. Bu əlamətdar gün təkcə Azərbaycanda deyil, digər ölkələrdə də qeyd olunub. Cümhuriyyət müsəlman Şərqində ilk dünyəvi, çoxpartiyalı parlamentə malik respublika olub, aparıcı dövlətlərdən də xeyli əvvəl ilk dəfə kişilərlə yanaşı, qadınlara da seçib-seçilmək hüququ verib.

Azərbaycanın sosial-iqtisadi inkişafından danışan Prezidentin köməkçisi bildirib ki, ölkəmiz yola saldığımız ildə nailiyyətlərini daha da artırıb. Bu il bir sıra transmilli layihələr icra olunub, Avropa İttifaqının, dünya ölkələrinin reallaşdıra bilmədiyi NABUCCO marşrutunun əvəzində Azərbaycanın və Türkiyənin liderliyi ilə "Cənub qaz dəhlizi" layihəsi həyata keçirilib. 2020-ci ildə bu kəmər tam işə düşəcək, 100 illər ərzində Azərbaycanın maraqlarını təmin edəcək. Bundan başqa, Bakı-Tbilisi-Qars dəmir yolu xətti ötən il istifadəyə verilsə də, bu yol boyunca əsas tərəfdaş ölkələrlə yükdaşımaları ilə bağlı sazişlərin imzalanması bu ilə təsadüf edib. Bu il həm də üçüncü peykimiz orbitə buraxılıb.

Əli Həsənov deyib ki, yola saldığımız il media sahəsində də uğurlu olub. Jurnalistikamız inkişaf edib, saytların sayı artıb. Saytların müxtəlif xarici dillərdə versiyaları yaranıb. Bu il reket jurnalistikası ilə mübarizəyə hüquq mühafizə orqanları da qoşulub. Bu da mediamızın təmizlənməsi, mənfi halların aradan qalxması işində önəmlidir. Jurnalist adından sui-istifadə edib jurnalistikanı hörmətdən salan şəxslərlə mübarizə bundan sonra da davam edəcək.

Sonra qaliblər mükafatlandırılıb. Təltif olunanlar arasında AZƏRTAC-ın birinci yerə layiq görülmüş bölgə müxbiri Tahir Ağaməmmədov da var.

Daha sonra Əli Həsənov Prezident İlham Əliyevin sərəncamına əsasən "Şöhrət" ordeni ilə təltif olunmuş "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqova yüksək dövlət mükafatını təqdim edib. Qəzetin bir qrup əməkdaşına isə "Əməkdar jurnalist" fəxri adının vəsiqələri və döş nişanları, həmçinin "Tərəqqi" medalları təqdim olunub.

Baş redaktor Bəxtiyar Sadıqov çıxış edərək yüksək mükafatlara görə dövlət başçısına minnətdarlığını bildirib.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral xalqımızı qarşıdan gələn əlamətdar günlər münasibətilə təbrik edib. Səfir qardaş ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bu ilin də Azərbaycan jurnalistikası üçün əlamətdar olduğunu bildirib. Azərbaycanda sağlam jurnalistikanın mövcud olduğunu deyən Ə.Amaşov bu sahədə görülən işlərin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb. Qeyd edib ki, Mətbuat Şurası jurnalistikamızın sağlamlaşdırılması işini bundan sonra da davam etdirəcək.

Tədbir bədii hissə ilə davam edib.

# Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq səmərə verir

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi hüquqi islahatlar çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsinə böyük önəm verilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qurum 40-dan çox ikitərəfli müqavilənin, o cümlədən cinayət və mülki işlər üzrə hüquqi yardım, ekstradisiya, məhkumların verilməsi üzrə öhdəliklərin icrasını həyata keçirir, 32 ölkənin Ədliyyə nazirlikləri ilə ikitərəfli sazişlər çərçivəsində əməkdaşlıq edir, 16 çoxtərəfli konvensiya üzrə isə mərkəzi və ya əlaqələndirici orqan qismində çıxış edir. Bunun nəticəsində beynəlxalq hüquqi yardımla bağlı nazirliyə daxil olan sorğuların sayı dəfələrlə artaraq bu il 19 minə çatmaqdadır.

Hüquqi əməkdaşlıq çərçivəsində beynəlxalq cinayət hüququnun qədim institutlarından olan ekstradisiya sahəsində işin dairəsi də genişlənir. Belə ki, bir sıra dövlətlərlə, o cümlədən Çin, İran, Mərakeş, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Hindistan, həmçinin bu il Əlcəzair ilə bu sahədə müqavilələr bağlanılıb, habelə MDB çərçivəsində müvafiq konvensiyalar üzrə əməkdaşlıq edilir.

Eyni zamanda, dövlətimiz "Ekstradisiya haqqında" 1957-ci il tarixli Avropa Konvensiyasının iştirakçısı olmaqla Ədliyyə Nazirliyi tərəfindən səlahiyyətli qurum kimi qitə dövlətləri ilə səmərəli əlaqələr həyata keçirir. Həmin sənədlər cinayətkarlığın yayılmasının qarşısının alınması, cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb olunması və bununla da ədalət mühakiməsinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, Azərbaycan dövləti universal və regional konvensiyalardan irəli gələn vəzifələri vicdanla yerinə yetirməklə kifayətlənməyərək xoş niyyət nümayiş etdirməklə ekstradisiya haqqında xüsusi qanun qəbul edib ki, bu da xarici tərəfdaşlarımızla bu sahədə müqavilə olmadan belə əməkdaşlıq etməyə imkan verir. Bütün bunlar cinayətkarların özünü təhlükəsizlikdə hiss etmələrinin qarşısını alan çox mühüm təsirli mexanizm olmaqla cəzanın labüdlüyü prinsipini təmin edir. Təsadüfi deyil ki, qeyd olunan sənədlərin icrası çərçivəsində İspaniya və Əlcəzair kimi uzaq dövlətlərdən cinayətkar şəxslərin ölkəmizə ekstradisiyası həyata keçirilib.

Son dövrlər ekstradisiya zamanı təslim edilən şəxslərin hüquqlarının qorunmasına, onların penitensiar müəssisələrdə saxlanma şəraitinin Avropa standartlarına uyğun təminatına və tibbi vəziyyətinə daim nəzarət olunmasına xüsusi diqqət yetirilir. Hətta bəzi dövlətlərdə şəxsin ekstradisiyası barədə qərarın onu qəbul edən dövlətdə saxlanma şəraiti ilə yerində tanış olunduqdan sonra verilməsi təcrübəsi mövcuddur.

Ötən dövrdə dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə penitensiar sistemin və infrastrukturunun müasirləşdirilməsi, məhkumların saxlanma şəraitinin, tibb və digər təminatlarının yaxşılaşdırılması, səmərəli ictimai nəzarətin tətbiqi sahəsində məqsədyönlü tədbirlər görülür. Bu sahədə aparılan islahatların müsbət nəticəsidir ki, Almaniya tərəfi həmin praktikadan istifadə edərək Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə təqsirləndirilən Azərbaycan vətəndaşının ekstradisiyası ilə bağlı müsbət qərar qəbul edib. Həmin şəxs bu günlərdə Ədliyyə Nazirliyi tərəfindən Almaniyadan ölkəmizə gətirilib.

Ümumiyyətlə isə, ötən beş il ərzində 160-dək cinayətkar şəxsin Azərbaycana ekstradisiya edilməsinə nail olunub.

Bu sahədə lazımi tədbirlər bundan sonra da davam etdiriləcək.

# "Sabitlik və rifah naminə siyasət" kitabının təqdimatı oldu

Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, hüquq üzrə elmlər doktoru, professor İsaxan Vəliyevin müəllifi olduğu "Sabitlik və rifah naminə siyasət" kitabının təqdimatı keçirilib.






Kitabın elmi redaktoru Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri, tarix elmləri doktoru Əli Həsənov, rəyçilər Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlu, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun Müasir siyasətin fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor Rəna Mirzəzadə, redaktoru "Azərbaycan" qəzetinin şöbə müdiri, əməkdar jurnalist Bəxtiyar Əzizlidir.

"Təhsil" nəşriyyatında dərc edilən kitab ümummilli lider Heydər Əliyevin 95, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə ithaf olunub. Kitabda əbədi müstəqilliyimizin banisi, ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi dövlət siyasətinin müxtəlif istiqamətlərindən söhbət açılır, sabitlik və rifaha aparan dövlət siyasətinin ölkə rəhbəri tərəfindən müəyyən edilmiş hədəflərindən bəhs edilir.

Tədbirdə Milli Məclisin deputatları, tanınmış elm adamları, ictimai xadimlər, media nümayəndələri iştirak ediblər.

Çıxış edənlər müəllifə uğurlar arzulayaraq kitabın alimlər, tədqiqatçılar, politoloqlar və maarifləndirici fəaliyyətlə məşğul olan mühazirəçilər üçün dəyərli vasitə olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, kitabda güclü dövlət, müstəqil siyasət, yüksək sosial rifah ölkə rəhbərinin apardığı siyasətin prioritet hədəfləri kimi dəyərləndirilir, dövlətçiliklə siyasi varisliyin təntənəsi konkret faktlarla təhlil olunur.

Kitabda xüsusi olaraq vurğulanıb ki, 1991-ci ildə Xalq Cümhuriyyətinin ideyaları və tarixi varislik prinsipləri üzərində müstəqilliyini bərpa edən Azərbaycan xalqı bununla özünün qədim dövlətçilik ənənələrinə sadiqliyini göstərib. Azərbaycanda dövlətçilik ənənələrinin bərpası və inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, əbədi və dönməz xarakter alması, respublikamızın beynəlxalq nüfuzunun artması müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin yorulmaz və gərgin əməyi sayəsində mümkün olmuşdur. Ulu öndərin respublikamızda uğurla gerçəkləşdirdiyi məqsədyönlü siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirib, azərbaycançılıq məfkurəsi ətrafında xalqın birliyini möhkəmləndirib, milli dövlətçiliyin hüquqi, iqtisadi və siyasi əsaslarını formalaşdırıb.

8 fəsildən ibarət kitab Heydər Əliyev və İlham Əliyevin imzaladıqları Azərbaycan Xalq Cümhuriyyətinin yubileylərinə həsr olunan sərəncamlarının mətni ilə başlayır. Fəsillər "Müstəqilliyə aparan yol", "Dövlətçilikdə uğurlu varislik", "Tolerantlıq məkanı - Azərbaycan", "Modernləşməyə aparan iqtisadi islahatlar", "Sağlam və dayanıqlı inkişaf naminə", "Milli maraqların təminatçısı", "Ədalət və mərhəmət ünvanı", "İntellektual gələcəyə doğru" başlıqları ilə təqdim olunur.

Sonda müəllif tədbir iştirakçılarına təşəkkürünü bildirərək onları maraqlandıran sualları cavablandırıb.

***"Azərbaycan"***



# Cocuq Mərcanlıda bayram ovqatı

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası, "Təmiz ürək" İctimai Birliyi və Cəbrayıl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Cocuq Mərcanlıda bayram tədbiri keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qonaqlar əvvəlcə Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edib, şəhidlərin ruhuna ehtiramlarını bildiriblər. Sonra Cocuq Mərcanlıya gələn qonaqlar orta məktəb, uşaq bağçası, tibb məntəqəsi, poçt, "Qayıdış" parkı, məscidlə tanış olublar. Məktəbə kitablar hədiyyə edilib.

Klub-icma mərkəzində keçirilən bayram tədbirində Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov qonaqları salamlayaraq işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpa prosesi barədə məlumat verib. Qeyd edilib ki, Cocuq Mərcanlı kəndi 1993-cü ildə düşmən tərəfindən işğal edilsə də, bir il sonra, yanvarın 6-da ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə uğurlu Horadiz əməliyyatı nəticəsində azad olunub. Lakin Lələtəpə yüksəkliyi ermənilərin nəzarətində olduğundan burada yaşamaq qeyri-mümkün idi. Yalnız 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad olunması bu təhlükəni aradan qaldırdı. Prezident İlham Əliyevin sərəncamları ilə Cocuq Mərcanlıda birinci mərhələdə 50 evin, məktəb binasının, məscidin, elektrik yarımstansiyasının tikintisi həyata keçirilib, qaz, elektrik, rabitə, içməli su xətləri, uzunluğu 9 kilometr olan avtomobil yolu çəkilib. Kənddə tikinti işlərinin növbəti mərhələsində daha 100 ev, uşaq bağçası, tibb məntəqəsi, poçt, klub-icma mərkəzi üçün binalar və digər zəruri infrastruktur obyektləri, "Qayıdış" parkı inşa edilib. Bu gün dövlətin diqqət və qayğısı sayəsində Cocuq Mərcanlıda həyat öz axarı ilə davam edir. Kənd sakinləri məcburi köçkünlük həyatına son qoyaraq doğma kəndlərindəki abad və yaraşıqlı mənzillərində yeni həyata başlayıblar. Kənddə sakinlərin məşğulluğunun təmin edilməsi və sosial rifahın yaxşılaşdırılması istiqamətində müxtəlif layihələr həyata keçirilir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova Cocuq Mərcanlıya qayıdışın mühüm hadisə olduğunu bildirib. O deyib ki, cocuq mərcanlılıların 24 illik köçkünlük həyatından sonra doğma kəndlərinə qayıtmaları qəhrəmanlıq salnaməsidir, torpağa bağlılığın parlaq nümunəsidir. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edildiyini vurğulayan S.Qəhrəmanova xalqımızın dövlət müstəqilliyinin əldə edilməsi üçün göstərdiyi fədakarlıqdan, müstəqilliyin qorunmasında və möhkəmlənməsində ulu öndər Heydər Əliyevin xidmətlərindən danışıb. Komitə sədrinin müavini Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionda ən inkişaf etmiş və qüdrətli ölkəyə çevrildiyini diqqətə çatdırıb.

Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri Nurlana Əliyeva kənd sakinlərini uzun illərdən sonra doğma torpaqlarına qayıtmaları münasibətilə bir daha təbrik edib. Cocuq Mərcanlıda gördüklərindən - dövlətimiz tərəfindən yaradılan şəraitdən, həyata keçirilən layihələrdən və cocuq mərcanlılıların öz doğma kəndlərində firavan həyatından məmnunluğunu ifadə edərək, bunu vətənpərvərlik, fədakarlıq nümunəsi adlandırıb.

Prezident Katibliyinin rəisi - Prezidentin köməkçisi, professor Dilarə Seyidzadə Cocuq Mərcanlı sakinlərini, uşaqları Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, xoş arzularını çatdırıb.

Cocuq Mərcanlıda olmaqdan duyduğu sevinci dilə gətirən Dilarə Seyidzadə deyib: "Bu gün mənim üçün xüsusi önəm daşıyır. İki il idi ki, sizi görmək, sizə arzularımızı çatdırmaq istəyirdik. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il gəlir. 31 dekabr harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı üçün əziz bayramdır. Mən bir ana, nənə olaraq sizin hər birinizi bağrıma basıb ürəkdən təbrik edirəm. Arzu edirəm ki, o ağır günlər bir daha təkrarlanmasın, hər yeni iliniz beləcə sakit keçsin, arzularınız çin olsun".

Dilarə Seyidzadə qeyd edib ki, hələ ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə bütün qaçqın düşərgələrində olub, məcburi köçkünlərin çətin şəraitini gözləri ilə görüb. "Biz qadınlar Cocuq Mərcanlıda yaradılan gözəl şəraitə görə Prezident İlham Əliyevə təşəkkürümüzü bildiririk. Burada arıçılıqla, əkinçiliklə məşğul olursunuz, sakit yaşayırsınız. Dövlət başçısı hər bir azərbaycanlının qayğısına qalır, hamının firavan yaşamasına çalışır", - deyə Dilarə Seyidzadə vurğulayıb.

Tədbirdə çıxış edən sakinlər Prezident İlham Əliyevə sosial problemlərinin həllinə göstərdiyi həssas münasibətə görə minnətdarlıqlarını bildiriblər.

Cocuq Mərcanlıda yaşayan ailələrə və uşaqlara bayram sovqatları verilib.

Mədəniyyət və İncəsənət Universitetinin təşkilatçılığı ilə təqdim olunan bədii proqram hamıda xoş ovqat yaradıb.

**“Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır”.**

**Heydər ƏLİYEV**



# Hər bir azərbaycanlının Prezidenti

Bu gün biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikası regionun lider ölkəsidir. Əksər regional və beynəlxalq layihələrə Azərbaycan evsahibliyi edir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş prinsiplərə sadiq qalaraq hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada nəhəng quruculuq işləri aparılır. Hətta elə vacib görüş və tədbirlər var ki, onların keçirilməsi üçün məhz Azərbaycan seçilir. Əlbəttə ki, bunun çox ciddi əsasları var. Dünyanın müxtəlif yerlərində dövlətlərin bir-birinə qarşı düşmənçiliyini, dözümsüzlüyünü, etnik təmizləmələri, terror aktlarının törədildiyini, dini, milli, irqi ayrı-seçkiliyi müşahidə edirik. Bütün bunların fonunda Azərbaycanda insanlar təhlükəsizlik, tolerantlıq və mehribançılıq şəraitində yaşayırlar. Bu da hər bir inkişafın nüvəsini - sabitliyi təşkil edir. Ulu öndərin sözləri ilə desək: “Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”.

Biz buna təkcə mənsub olduğumuz mədəni keyfiyyətlərlə, qonaqpərvərliyimizlə, gözəl təbiətimizlə deyil, həm də ölkə rəhbərinin yürütdüyü düşünülmüş siyasət nəticəsində nail olmuşuq.

27 illik müstəqillik tariximizin son 15 ili xüsusilə önəmlidir. Tarix üçün 15 il çox qısa müddətdir, amma addım-addım inkişaf yolu keçən bir ölkə üçün heç də az zaman deyil. Prezident İlham Əliyev ötən müddət ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu dəfələrlə sübuta yetirib, ümummilli lider Heydər Əliyevin müqəddəs ideyalarını daha da inkişaf etdirərək uğurlu daxili və xarici siyasətə nail olub. Bunun nəticəsində Azərbaycan müstəqil dövlət olaraq daha da güclənib, dünya miqyasında söz sahibinə çevrilib. Azərbaycanın paytaxtı Bakı şəhəri ən mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edib. Ölkəmizdə “Eurovision” mahnı müsabiqəsi, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, “Formula-1” yarışları kimi bütün dünyanın diqqət mərkəzində olan mühüm mədəni, siyasi və idman tədbirləri keçirilib. “Əsrin kontraktı”nın daha da səmərəli şərtlərlə 2050-ci ilə qədər uzadılması, Bakı-Tbilisi-Qars dəmir yolunun açılması, “Cənub qaz dəhlizi”nin rəsmi açılışının keçirilməsi, eləcə də TANAP-ın istismara verilməsi, enerji, neft-qaz sahəsində nəhəng, irimiqyaslı layihələrin reallaşması ölkəmizin strateji əhəmiyyətini daha da artırıb. Azərbaycan nəinki öz xalqı, həm də qonşu ölkələr, bütövlükdə isə dünya üçün önəmli olan layihələr icra edir. Xüsusilə bu il orbitə çıxarılmış “Azerspace-2” peykini qeyd etmək istərdim, bu, sayca üçüncü peykdir. Peyk xidmətləri həm də ölkə iqtisadiyyatına da gəlir gətirir.

Ötən müddət ərzində müasir inkişaf dövrünü yaşayan Azərbaycanda çox mühüm dəyişikliklər, gözəçarpan yüksəliş baş vermişdir. Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi, onun başçılığı ilə aparılan sistemli islahatlar, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar ailələrin, o cümlədən qadın və uşaqların yaşayışına müsbət təsir göstərmişdir. Cənab İlham Əliyev həmişə qeyd edir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Və biz ölkə rəhbərinin - Prezidentin fəaliyyətində bunun əyani təsdiqini görürük. Vahid dövlətçilik siyasəti nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial, hərbi, idman sahələrində davamlı və dinamik sürətlə inkişaf edir. Son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artmışdır. Yeni infrastrukturun yaradılması, rayon və kəndlərə yolların çəkilməsi, onların qazlaşdırılması istiqamətində mühüm layihələr reallaşdırılmışdır. “ASAN xidmət” mərkəzlərinin açılışı və uğurlu fəaliyyəti sosial xidmət sahəsində ən gözəl nümunədir. Ölkədə vətəndaşlara daha tez və operativ xidmətlərin göstərilməsi sahəsində davamlı olaraq yeni layihələr həyata keçirilir. Bunlardan biri də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilən fərmanın əsasında yaradılmış “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi”dir (DOST). DOST-un əsas məqsədi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsidir.

Sosial infrastrukturun inkişafı sahəsində də böyük işlər görülüb. Qısa müddətdə minlərlə məktəb və tibb müəssisəsi (3200-dən çox məktəb, 650-dən çox tibb müəssisəsi) tikilib istifadəyə verilib. İl ərzində 5 milyondan çox insan dövlət hesabına pulsuz tibbi müayinədən keçirilib. Vacib göstəricilərdən biri də son 15 il ərzində yoxsulluğun 49 faizdən beş tam onda dörd (5,4) faizə düşməsi və işsizlik səviyyəsinin 5 faiz olmasıdır. Əsas iqtisadi göstəricilərimizin artması, eyni zamanda əməkhaqlarının, pensiya və sosial müavinətlərin yüksəlməsinə səbəb olmuşdur. Məktəblərdə qeydiyyat dərəcəsi ibtidai, ümumi və tam orta təhsil səviyyələrində 99,8-100 faizə çatdırılmış, gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətlərinin artırılmasında tərəqqiyə nail olunmuş, uşaq və ana ölümü əhəmiyyətli dərəcədə azalmış, yoluxucu və digər xəstəliklərə qarşı mübarizə gücləndirilmiş, ətraf mühitin mühafizəsi və qorunması üçün qlobal tərəfdaşlığın təmin edilməsində mühüm irəliləyişlər olmuşdur. Bu uğurlar heç də asanlıqla əldə edilməmişdir. Ötən 27 ildə mürəkkəb ictimai-siyasi və ağır hərbi vəziyyətdə, Ermənistan tərəfindən ərazilərimizin işğalı, hələ də aqressiv siyasətin davam etdiyi, dörd yüz əlli üç (453 731) mindən çox qadını, üç yüz doqquz mindən çox uşağı (309 080) əhatə edən 1 milyondan çox qaçqın və məcburi köçkünün olduğu bir vaxtda vətəndaşlarımız üçün bu imkanlar yaradılmışdır.

Azərbaycanın uğurları, iqtisadi və sosial nailiyyətləri beynəlxalq hesabatlarda da öz əksini tapıb. Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan reytinqdə 35-ci yerdə qərarlaşıb. Beynəlxalq aləmin ən mötəbər reytinqində Azərbaycan dünya ölkələrinin hər dördündən üçünü geridə qoyaraq MDB-də liderliyini qoruyub. “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı”nda dünyada əsas narahatedici trendlərdən biri kimi “dağıdıcı bərabərsizlik” qeyd edilsə də, Azərbaycan sosial bərabərsizliyin ən aşağı olduğu ölkələrdən biri kimi qiymətləndirilib. Azərbaycan “Qlobal Rəqabətlilik Hesabatı-2018/2019” üzrə də yeni dövrün ilk bir neçə indikatoru üzrə yüksək nəticələr əldə edib. Bu nəticələr ölkəmizin gələcəkdə digər indikatorlar üzrə daha yaxşı nəticələr əldə etməsi üçün yeni imkanlar açır. Bu il yanvarın 22-də Dünya İqtisadi Forumu ölkəmizlə bağlı daha bir hesabatını açıqlayıb. Belə ki, Azərbaycan Dünya İqtisadi Forumunun illik “İnklüziv inkişaf indeksi-2018” hesabatında inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tutub. Bu hesabatda Azərbaycan 7 mümkün baldan 4,69 bal toplayıb. 2018-ci ilin oktyabrında Dünya Bankının yaydığı “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək daha çox islahat aparan ölkə elan olunmuşdur. Yeni hesabatda 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşan Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir. Belə yüksək nəticə məhz son illər Azərbaycan hökumətinin apardığı islahatlar sayəsində mümkün olmuşdur. Bütün bu qiymətləndirmələr bir daha sübut edir ki, Prezident İlham Əliyevin başçılığı ilə aparılan sistemli işlər, regionlarımızın inkişafına yönələn sosial-iqtisadi proqramlar öz müsbət nəticələrini verməkdədir.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə vətəndaşlarımız, xüsusən də qadın və uşaqlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi məqsədilə mühüm işlər görülmüşdür. Həssas sosial təbəqələrin, o cümlədən kəndli qadınların, qaçqın və məcburi köçkün, həmçinin aztəminatlı və çoxuşaqlı ailələrin vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bütövlükdə ailələrin sosial rifahını yüksəltmək, xüsusilə qadın və uşaqların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün hökumət mütəmadi zəruri tədbirlər həyata keçirir. Ailə Məcəlləsinə edilən dəyişiklik əsasında qızlar və oğlanlar üçün nikah yaşı 18-ə qaldırılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyənləşdirilmişdir. “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə”, “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına” dair və bir sıra digər dövlət proqramları təsdiq edilmişdir. Tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə edilən dəyişiklik isə həm ailələrimizin, həm də gələcək nəsillərin sağlamlığına xidmət edir. Uşaqların təhsildən yayınması, əməyə cəlb olunması və onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bütün bu və digər məsələlər nəzərə alınaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər aparılmışdır.

Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün dövlətimiz tərəfindən bütün qüvvələr səfərbər edilmişdir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın konkret tapşırıqları əsasında onlar üçün yaşayış binalarının inşası, eyni zamanda, cəbhə bölgələrində ziyan dəymiş evlərin, sosial obyektlərin tikinti, bərpa və təmir işləri aparılır. Bu günə qədər 265 min məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Hərbi sənayenin inkişafı, ordumuzun gündən-günə güclənməsi, erməni işğalçılarından azad olunmuş Cocuq Mərcanlının yenidən qurulması insanlarda torpaqlarımızın azad edilməsinə inamı daha da artırır. Xüsusilə bu qəsəbənin sakinlərinin ictimai-siyasi həyata fəal qoşulması istiqamətində keçirilən tədbirlər, təşkil olunan görüşlər əhalidə böyük ruh yüksəkliyi yaradır. Bu gün ölkədə ailə institutunun möhkəmləndirilməsi üçün hansı imkanlar var? İlk növbədə qeyd etmək lazımdır ki, güclü qanunvericilik bazası mövcuddur. Yeni tələblər və ehtiyaclar əsasında bu baza daim təkmilləşdirilir. Bütövlükdə ailələrin sosial rifahını yüksəltmək üçün hökumət mütəmadi zəruri tədbirlər həyata keçirir. İldən-ilə ailələrimizin sosial müdafiəsi güclənir, müxtəlif layihələr reallaşdırılır. Və bunun nəticəsində son 20 il ərzində əhalimizin sayı artaraq doqquz milyon doqquz yüz mini (9 milyon 900 min) ötmüşdür. Bu gün Azərbaycanda 2 milyon yüz mindən çox ailə var. Ömrünün 25, 50, 60 və daha çox müddətini bir yerdə yaşayan çoxlu uzunömürlü ailələrimiz mövcuddur.

Müasir dövrdə qadınlarımızın ölkə həyatında rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: “Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətinin bütün dərinliyini dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəklər”. 6 fevral 2006-cı ildə Prezident İlham Əliyevin fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bu fikrin əməli təcəssümüdür. Elə həmin ildə “Gender - kişi və qadınların bərabərliyi təminatları haqqında” regionda analoqu olmayan çox mühüm qanun imzalandı. Həmin qanuna əsasən, Azərbaycan qadınları çox geniş hüquqi təminatlar əldə etdilər, kişi və qadınların dövlətin idarə olunmasında və qərar qəbul edilməsində bərabər təmsilçiliyinə, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına nail olundu. 2010-cu ildə isə daha bir cəsarətli addım atılaraq “Qadınlara qarşı məişət zorakılığının aradan qaldırılması” haqqında qanun təsdiqləndi və qadın hüquqlarının müdafiəsi sahəsində mühüm mərhələnin əsası qoyuldu. Xüsusi qeyd olunmalıdır ki, bu qanunun qəbul olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın danılmaz rolu var. Ölkə Prezidenti tərəfindən Mehriban xanımın Birinci vitse-prezident təyin edilməsi də cəmiyyətdə qadın iştirakçılığına verilən önəmin bariz göstəricisidir.

Bu il biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə yanaşı, qadınlara seçmək və seçilmək hüququnun verilməsinin də 100 illiyini qeyd etdik. Azərbaycan müsəlman Şərqində qadına seçmək və seçilmək hüququ verən ilk ölkədir. 100 il əvvəl belə bir hüququ əldə etməklə biz əksər qabaqcıl Avropa ölkələri ilə eyni sırada dayanırıq. Bu əlamətdar hadisə ilə bağlı Gəncədə konfrans keçirildi və bununla da silsilə tədbirlərə start verildi. Bu tədbirlərə isə ölkə daxilində Qadınların V Forumu ilə yekun vuruldu. Qeyd edim ki, forumun yeni formatda keçirilməsi, beynəlxalq statusa malik olması çox bəyənildi. Əlbəttə ki, dövlət başçımızın, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqəti və dəstəyi olmadan belə nüfuzlu tədbir keçirmək qeyri-mümkün idi.

Ölkə Prezidentinin təşəbbüsü ilə hazırda bir çox ənənəvi sahələr yenidən dirçəldilib. Baramaçılığın, pambıqçılığın, tütünçülüyün, əkinçiliyin, üzümçülüyün yenidən inkişafı həm də qadınlarımızın məşğulluğuna müsbət təsir göstərir. Sahibkarlığın, xüsusilə qadın sahibkarlığının inkişafı üçün geniş imkanlar yaradılmışdır. Həyata keçirilən dövlət siyasəti nəticəsində aztəminatlı, ünvanlı sosial yardım alan, riskli ailələrdən olan, eləcə də kənd və rayonlarda yaşayan xüsusi həssas yanaşma tələb edən qadınların məşğulluğunun artırılması üçün müxtəlif sahələrdə onların biznesə cəlb olunmalarını sürətləndirir. Qəbul olunmuş bir sıra dövlət proqramları ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasında mühüm xarakter daşıyır. Görülən tədbirlər qərar qəbuletmə səviyyəsində qadınların təmsilçiliyinə öz müsbət təsirini göstərdi. Milli Məclisdə qadınların xüsusi çəkisi 1990-cı ildə 4,3 faiz, 2000-ci ildə 10,7 faiz, 2010-cu ildə 16 faiz, 2015-ci ildə 16,8 faiz olub. Bələdiyyəyə seçilmiş qadınlar isə 2004-cü ildə 4 faiz, 2009-cu ildə 26,5 faiz, 2014-cü ildə isə 35 faizə çatmışdır. Son illər demək olar ki, bütün yerli icra hakimiyyəti başçılarının müavinlərindən biri qadın təyin olunub. Qəbul olunmuş bir sıra dövlət proqramları ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasında mühüm xarakter daşıyır. İndi onlar səhiyyədə, təhsildə, elmdə, orduda, idmanda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında çalışırlar.

Uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan hökuməti tərəfindən mühüm işlər görülmüşdür. Ölkə Prezidentinin və Birinci xanımın uşaqlara göstərdikləri qayğı, həmçinin dövlət orqanlarının və vətəndaş cəmiyyətinin onlara diqqətini daha da artırmışdır. Ölkədə vahid dövlət uşaq siyasətini həyata keçirən dövlət qurumu kimi komitə tərəfindən mütəmadi olaraq müxtəlif layihələr həyata keçirilir. Uşaq hüquqlarının müdafiəsi ilə bağlı güclü qanunvericilik bazası mövcuddur. Bu yaxınlarda “Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunub. Bu da bizim bir uğurumuzdur. Ölkəmiz Uşaq hüquqları haqqında Konvensiya və DİM -dən irəli gələrək bir sıra öhdəliklərlə bağlı hər 4 ildən bir hesabat verir. BMT-dən hesabata dair yüksək qiymətlər verilib və bu onu göstərir ki, dövlətimiz uşaq hüquqlarının həyata keçirilməsi üçün çox böyük uğurlar əldə edib. Uşaq hüquqları ilə bağlı mühüm qanunlar, dövlət proqramları qəbul olunub. Vacib layihələr həyata keçirilir. Bir çox ölkələrdən, hətta inkişaf etmiş ölkələrdən bu sahədə Azərbaycan öndədir. 2009-cu il “Uşaq ili” elan olunmuşdur. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nın təsdiq edilməsi bu sahədə görülən işləri daha gücləndirmişdir. Hazırda dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılır. Bütün məlumatlar komitədə ümumiləşdirilir, tövsiyələr hazırlanır və Nazirlər Kabinetinə çatdırılır. Həmin tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılır, mütəxəssislər üçün yeni təlimlər keçirilir.

Bizim üçün çox vacibdir ki, uşaqlarımızın ictimai fəallığı artsın və dövlət siyasətinin həyata keçirilməsində aktiv iştirak edə bilsinlər. Qeyd etmək lazımdır ki, bu sahədə görülən işlər öz müsbət nəticəsini verir. Artıq uşaqlarımız dövlət rəsmilərinə onları maraqlandıran suallarla müraciət edir, həmçinin sərbəst şəkildə hökumətə öz hüquqları ilə bağlı istək və arzularını çatdırır, mühüm məsələlərə münasibətlərini bildirirlər. Azərbaycanın bütün regionlarında bizim dəstəyimizə çevrilən uşaqlardan ibarət güclü Liderlər Komandası formalaşıb. Hər iki ildən bir UNİCEF və Heydər Əliyev Fondu ilə birgə Ümumrespublika Uşaq Forumları keçirilir. BMT Uşaq Fondunun da qeyd etdiyi kimi, Azərbaycanın bu təcrübəsi uşaq liderliyinin reallaşması sahəsində digər ölkələr üçün yaxşı nümunələrdən biridir. Uşaq hüquqlarının müdafiəsi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının sayı 350-dək artmışdır.

Müxtəlif dövlət qurumları çox vacib layihələr həyata keçirir. Bunlardan “Uşaq qayğı sistemində islahatlar”, “İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi”, “Azərbaycanda erkən yaşlı uşaqların inkişafının monitorinqi üzrə mütəxəssislərin hazırlanması”, “Ana südü ilə qidalandırma həftəsi”, “Uşaq hüquqlarına dair elektron məlumat bankı”nın yaradılması, Uşaq və Ailələrə Dəstək Mərkəzlərində mövcud elektron məlumat bazasının yenidən qurulması və başqa layihələrin adlarını çəkmək olar. Qeyd edək ki, bu elektron məlumat bazası MDB ölkələri arasında yalnız Azərbaycanda mövcuddur. Belə önəmli layihələr, maarifləndirmə və uşaq hüquqlarının müdafiəsi işini daha da gücləndirir, yaxşı da nəticələr verir.

Ümummilli lider Heydər Əliyev deyirdi: “Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir”. Biz inanırıq ki, dövlətimiz qarşısına qoyduğu bütün məqsədlərə çatacaqdır. Bu inamı isə dünya siyasətçiləri arasında sayılıb-seçilən Prezident İlham Əliyev daha da gücləndirir.

***Hicran HÜSEYNOVA,***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor***

# Təcrübəli və uzaqgörən siyasi xadim, həqiqi lider

*Əvvəli 1-ci səh.*

Münasibətlər beynəlxalq əməkdaşlıqdan tutmuş iqtisadi və hərbi sahələrə qədər geniş spektri əhatə edir, müxtəlif sahələrdə iki yüzə yaxın sənəd imzalanıb. Mübaliğəsiz demək olar ki, bu gün Azərbaycan-Rusiya münasibətləri dinamik yüksəliş mərhələsindədir. İki ölkə ictimai-siyasi, ticari-iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. Rusiyanın subyektləri ilə Azərbaycanın regionlararası əlaqələri səmərəli və dinamik inkişaf yolundadır.

Başa çatmaqda olan 2018-ci il Azərbaycan-Rusiya münasibətlərinin inkişafında uğurlu mərhələdir. Bu il Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı səfərləri və 6 dəfə görüşmələri iki ölkə arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsinə güclü təkan verib. Bu səfərlər və görüşlər çərçivəsində ikitərəfli əlaqələrin perspektivləri müzakirə edilib, beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparılıb. Ən əsası səfərlərin hər biri münasibətlərin strateji xarakterini, iki ölkənin dost və tərəfdaş olduğunu təsdiqləyib.

Bu günlərdə “Rossiya-24” telekanalına müsahibəsində Prezident İlham Əliyev bu il Azərbaycan-Rusiya münasibətlərinin sürətlə inkişaf etdiyini bildirib: *“Bu il Rusiya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib. Bizim münasibətlərimiz prinsipcə çox dinamik inkişafla, sabitliklə, davamlı olması ilə səciyyələnir. Biz mehriban qonşu və etibarlı dostuq. Bu, dəfələrlə sübut olunub və budur, bu yüksək etimad səviyyəsi, ilk növbədə, həm də siyasi qarşılıqlı fəaliyyət bir çox layihələrin həyata keçirilməsinə kömək edir”.*

Vladimir Putin də məhz bundan çıxış edərək Prezident İlham Əliyevə təbrikində “Bizim aramızda yaranmış münasibətləri yüksək qiymətləndirirəm. Sizinlə konstruktiv dialoqun və sıx birgə işin davam edəcəyinə ümid bəsləyirəm” deyə qeyd edib. Bu fikirləri Vladimir Putinin Azərbaycan-Rusiya münasibətlərinə münasibəti kimi də dəyərləndirmək olar. Çünki Prezident İlham Əliyevə dərin ehtiramını diqqətə çatdıran Vladimir Putin həm də dövlətlərarası əlaqələrin inkişafından və səviyyəsindən razılığını ifadə edib.

Onu da əlavə edək ki, Vladimir Putin İlham Əliyevə həm də zəng edərək ad günü münasibətilə təbrik edib, prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb. Söhbət zamanı qeyd edilib ki, 2018-ci il Azərbaycan-Rusiya dostluq əlaqələrinin tarixində çox məhsuldar il olub, dövlət başçılarının qarşılıqlı səfərləri, beynəlxalq tədbirlər çərçivəsində çoxsaylı təmaslar əlaqələri daha da yüksək səviyyəyə qaldırıb. Prezidentlər öz əminliklərini bildiriblər ki, 2019-cu ildə də ikitərəfli münasibətlərdə müsbət dinamika davam etdiriləcək və Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələri daha da yüksələcək.

Göründüyü kimi, Azərbaycan-Rusiya münasibətləri hər iki tərəfin yüksək siyasi iradəsi ilə ildən-ilə daha da genişlənir. Bütövlükdə isə Vladimir Putinin İlham Əliyevə təbriki və zəngi ona dəlalət edir ki, Rusiya Cənubi Qafqazdakı əsas tərəfdaşının Azərbaycan olduğunu qəbul edir və bunu yüksək qiymətləndirir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# AÇG-nin hasilatı davam edir, gəlirləri artır



*Əvvəli 1-ci səh.*

Yataqlarda yeni quyuların qazılması işləri davam edir ki, bu da gələcəkdə hasilatın sabit olmasına zəmin yaradır. İlin əvvəlindən burada 8 neft hasilat quyusu və 3 su injektor quyusu qazılıb.

2017-ci ilin sentyabrında imzalanmış “Yeni əsrin müqaviləsi” çərçivəsində AÇG-nin ərazisində daha bir platformanın quraşdırılması nəzərdə tutulur. Xəzərdə “Mərkəzi Azəri” və “Şərqi Azəri” arasında, mərkəzi nöqtədə yerləşəcək bu qurğu “Mərkəzi Şərqi Azəri” platforması adlanacaq.

2050-ci ilədək AÇG yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Qeyd edək ki, 2018-ci il yanvarın 29-da ARDNF-yə yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib.

AÇG yataqlarından əldə olunan ümumi gəlirlər isə 2001-ci ildən 2018-ci il dekabrın 1-dək 137 milyard 446 milyon ABŞ dolları təşkil edib. Bu məlumatı da ARDNF yayıb. Xatırladaq ki, ARDNF 1999-cu ildə ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində yaradılıb. Sonrakı illərdə ölkənin sosial-iqtisadi inkişafına sərf olunan daxili investisiyaların xeyli hissəsi məhz bu fondun hesabına formalaşıb.

Neft-qaz gəlirlərindən bəhs edərkən Prezident İlham Əliyev demişdir: “Əsrin kontraktı”nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz “qara qızıl”ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Ermənistan ordusu bölmələrinin Ağdam rayonu ərazisində qəbiristanlığı atəşə tutması nəticəsində mülki şəxs xəsarət alıb



Dekabrın 26-da günün ikinci yarısında Ermənistan silahlı qüvvələrinin bölmələrinin Ağdam rayonunun Mirəşelli kəndi ərazisində qəbiristanlıqda mülki şəxsləri atəşə tutması nəticəsində bir nəfər xəsarət alıb.

AZƏRTAC xəbər verir ki, Bakıdan rayona gələrək şəhid qardaşı oğlunun və qardaşının məzarını ziyarət etməyə gedən Ağdam rayonunun Baş Qərvənd kənd sakini, 1945-ci il təvəllüdlü Allahverdiyeva Dilşad Allahverdi qızı və bir neçə yaxın qohumu düşmən tərəfindən atəşə tutulub.

Düşmənin atəşi nəticəsində yaşlı qadın qulaq nahiyəsindən xəsarət alıb. Ağdam rayon xəstəxanasına aparılan D.Allahverdiyevaya ilkin tibbi yardım göstərilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən faktı təsdiqləyiblər.

Xatırladaq ki, bu hal ilk dəfə baş vermir. Düşmənin məhz bu qəbiristanlığı atəşə tutması nəticəsində əvvəllər də xeyli sayda dinc sakin müxtəlif güllə yarası alıb. Onlar arasında həyatını itirənlər də olub.



## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Kəngərli, Sarıcalı, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Tərəqqi təhsildən başlayır

*Əvvəli 1-ci səh.*

Həmin sənədlərdə aparılan islahatlar və genişmiqyaslı infrastruktur layihələri sayəsində ölkəmizdə sosial-iqtisadi həyatın yenidən qurulması, davamlı inkişafı üçün şəraitin yaradılması və qarşıda duran strateji vəzifələr öz əksini tapmışdır. Həmin vəzifələr yaşam tərzimizin daha da modernləşdirilməsi və qabaqcıl təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsindən və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə ilk növbədə qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkə həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət respublikada insan kapitalının inkişafı, şəxsin yeni bilik və bacarıqlara yiyələnməsinin təminatıdır.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq, hər bir gəncə hərtərəfli bilik və bacarıqların verilməsi, sərbəst düşünən, müstəqil qərarlar qəbul etməyi bacaran, fəal həyat mövqeli, aydın dünyagörüşlü kamil vətəndaşlar yetişdirmək məqsədilə təhsil sisteminin institusional əsaslarının, infrastrukturunun və insan resurslarının inkişaf etdirilməsi dövlət siyasətinin başlıca şərtidir.

Müstəqil Azərbaycan dövlətinin yaxın gələcək üçün qarşıya qoyduğu hədəflərə doğru mühüm bir addım olan bu strategiya ulu öndər Heydər Əliyevin milli təhsilin inkişafı sahəsində formalaşdırdığı zəngin ənənələrə, Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə bu sahədə əldə edilmiş böyük nailiyyətlərə söykənir.

## Məzmun dəyişikliyi

Azərbaycan tarixinin heç bir dövründə təhsil indiki qədər geniş ictimai maraq predmeti olmamışdır. Bu marağı şərtləndirən əsas amillər isə ölkə Prezidentinin təhsilə olan xüsusi diqqəti, irəli sürülən vəzifələrin bütün respublikada icrası, genişmiqyaslı təhsil quruculuğu işlərinin aparılması, eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri olmuşdur.

Bu illərdə milli təhsilin məzmunu, mahiyyəti dəyişmişdir. Azərbaycan məktəblərinin maddi-texniki bazası müasirləşdirilmişdir. Məktəblər müasir avadanlıqlarla təchiz edilmiş, informasiya-kommunikasiya texnologiyaları ilə zənginləşdirilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən və böyük ictimai dəstək qazanan "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi hesabına ölkəmizdə təhsilin inkişafı ictimai hərəkata çevrilmişdir. Fond bu dəstəyi indi də davam etdirir. Məktəb tikintisində yaxından iştirak etməklə yanaşı, onların əyani vəsaitlər, hər cür ləvazimatlarla təmin olunmasında, şagirdlərin təhsilə həvəsinin artırılması üçün motivasiyaedici tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

Ölkədə son 5 ildə 500-dən çox, 2003-2018-ci illər ərzində isə 3200-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmiş, nəticədə 1 milyondan artıq şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmışdır. Ölkə Prezidentinin təşəbbüsü ilə ilk dəfə olaraq ucqar kəndlərdə az şagird kontingenti olan qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəb təcrübəsi tətbiq edilmiş, 2017-ci ildə 40 rayonda 6 min şagird yerlik 106 belə məktəb quraşdırılmışdır. Bu ilin sonunadək 43 regionda 8120 şagird yerlik daha 137 məktəbin quraşdırılması işləri başa çatdırılacaq, azkomplektli və qəzalı vəziyyətdə olan kənd məktəblərinin problemi əsasən həll ediləcəkdir.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili də hazırda əsas prioritetlərdən sayılır. Həmin kateqoriyadan olan uşaqların hüquqlarının təmin edilməsi və cəmiyyətə inteqrasiyası məqsədilə Heydər Əliyev Fondunun və UNICEF-in dəstəyi ilə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" hazırlanmış və ötən il təsdiq edilmişdir. Proqramın məqsədi təhsilin bütün pillələri üzrə sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilini digər həmyaşıdları ilə bərabər səviyyədə təmin etməkdən və onlar üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Ümumi təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, peşəkar kompetensiyalara və idarəetmə bacarıqlarına malik menecerlərin hazırlanması, ümumi təhsil müəssisələrinin direktoru vəzifəsinə səriştəli, yüksək idarəçilik qabiliyyətinə malik şəxslərin seçilib yerləşdirilməsi məqsədilə yeni mərkəzləşdirilmiş müsabiqə mexanizmi tətbiq olunmuş, son 5 ildə 700 nəfər direktor vəzifəsinə işə qəbul edilmişdir.

Bu gün Azərbaycan təhsilində dünyanın ən inkişaf etmiş ölkələrini indiki həyat səviyyələrinə qovuşdurmuş proseslər yaşanır. Həmin ölkələrin təcrübəsində uğur qazanmış qərarlar Azərbaycanda da qəbul edilir. Artıq gənc nəsil qarşısında yeni üfüqlər açılır. Azərbaycan vətəndaşları üçün təhsilalma imkanı təkcə ölkə sərhədləri ilə məhdudlaşmır. Azərbaycan dövlətinin maddi və mənəvi dəstəyi ilə dünyanın ən nüfuzlu universitetlərinin qapıları savadına, istedadına güvənən, müxtəlif istiqamətlər üzrə təhsil almaq arzusunda olan hər bir gəncin üzünə açıqdır. Dünyanın bütün sivil ölkələrində olduğu kimi, respublikamızda da yaxşı təhsil, yüksək fərdi inkişaf səviyyəsi parlaq gələcəyin təminatı kimi dəyərləndirilir.

## Dindirir əsr bizi: yeni hədəflərə doğru

İnsan kapitalının davamlı və dayanıqlı inkişafına nail olmaq üçün ölkəmizdə təhsil sisteminin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi Azərbaycan Prezidentinin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da öz əksini tapmışdır. Sənəddə təhsildə keyfiyyətin yüksəldilməsi üçün stimullaşdırıcı mexanizmlərin yaradılması, xüsusən adambaşına maliyyələşdirmə prinsipinin, həmçinin təhsil sahəsində tətbiqi tədqiqatları, eləcə də innovativ fəaliyyəti təşviqləndirən qrant maliyyələşdirilməsinin həyata keçirilməsinin genişləndirilməsi nəzərdə tutulmuşdur. Təhsildə bütün maraqlı tərəflərin cəlb olunmasını təmin edən idarəetmə modelinə üstünlük verilməsi, təhsil müəssisələrinin müstəqilliyinin artırılması, onların dövlət-ictimai xarakterdə idarə edilməsi, digər müasir idarəetmə texnologiyalarının tətbiqi kimi istiqamətlərdə islahatyönlü tədbirlərin görülməsi bu konsepsiyanın irəli sürdüyü vəzifələrdir. Ötən illər ərzində həmin vəzifələrin icrası istiqamətində mühüm nəticələr əldə edilmişdir, təhsil sistemində tənzimləmə və idarəetməni həyata keçirən dövlət orqanlarının funksiya və səlahiyyətləri qabaqcıl beynəlxalq təcrübəyə uyğun müəyyənləşdirilmiş və onların fəaliyyətinin səmərəli əlaqələndirilməsi üçün müvafiq mexanizmlər yaradılmışdır. Təhsil proqramları və dərsliklər müasir tələblər baxımından yenilənir, şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədilə sistemli tədbirlər görülür.

Peşə təhsili infrastrukturu da əsaslı şəkildə müasirləşdirilir, bura cəlb olunan vətəndaşların sayı artırılır, ölkə iqtisadiyyatının tələbatı ilə uzlaşdırılır. Təhsil sisteminin səmərəliliyində, onun nailiyyətlərinin formalaşdırılmasında müəllim amilinin, nüfuzunun həlledici əhəmiyyəti nəzərə alınmaqla bu sahədə kadr hazırlığının gücləndirilməsinə xüsusi önəm verilir.

Azərbaycan Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası prosesi bu baxımdan bir sıra mühüm nailiyyətlərlə müşayiət olunmuşdur. Müvafiq strategiya məzmun etibarilə ən vacib istiqamətləri əhatə edir. Dünya ölkələri arasında aparıcı mövqedə olan səriştəli müəllimlərin və təhsil menecerlərinin hazırlanması, eləcə də qabaqcıl texnologiyalara əsaslanan təhsil sisteminin yaradılması üçün beş strateji hədəf - məzmun, müəllim, idarəetmə, infrastruktur və maliyyələşdirmə üzrə islahatların aparılması əsas götürülür. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması məqsədinə uyğun olaraq ötən 5 il ərzində bu sahənin bütün pillələrində mühüm nəticələr əldə edilmişdir.



Eyni zamanda təhsil sahəsində insan resurslarının müasirləşməsi diqqət mərkəzində saxlanmış, səriştəli, təcrübəli təhsilverənin formalaşdırılması yönündə mühüm addımlar atılmışdır. Əsas istiqamətlərdən biri də təhsildə səmərəli idarəetmə mexanizmlərinin yaradılmasıdır. Bu istiqamət üzrə beynəlxalq təcrübəyə uyğun müasirləşdirmə, təhsilin keyfiyyət təminatının artırılması, habelə təhsildə yeni məlumat, hesabat sistemlərinin yaradılması istiqamətində də müəyyən işlər görülmüşdür.

Təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son 5 ildə ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərində davamlı artım dinamikası müşahidə edilir. Belə ki, bu müddətdə qəbul imtahanlarında 300 baldan çox toplayanların sayı 26,5 faiz, 400 baldan çox toplayanların sayı 35,1 faiz, 500 baldan çox toplayanların sayı 51,5 faiz, 600 baldan artıq toplayanların sayı isə 81,3 faiz artmışdır. Cari ildə 3127 nəfər abituriyent 600 baldan yuxarı nəticə göstərmişdir. Bu da 2013-cü ilə nisbətən təxminən iki dəfə artım deməkdir. Ölkədə ali təhsilalma imkanları genişləndirilmiş, son 5 il ərzində qəbul olunan tələbələrin sayında 20,8 faiz artım olmuş, bu göstərici cari ildə 41 min nəfər təşkil etmişdir.

İstedadlı uşaqlarla sistemli işin təşkili nəticəsində respublikada Olimpiada hərəkatı genişlənmiş, bu məqsədlə olimpiadaya hazırlıq mərkəzləri yaradılmışdır. 2018-ci ildə respublika fənn olimpiadalarında 33 mindən çox şagird iştirak etmişdir. Həyata keçirilən tədbirlər nəticəsində 2013-2018-ci illərdə beynəlxalq fənn olimpiadalarında yetirmələrimiz 3 qızıl, 28 gümüş və 100 bürünc medal qazanmışlar. Bu sahədə yeni ideya və təşəbbüslərin həyata keçirilməsi ilə bağlı "İstedadlı uşaq və gənclərin inkişafı üzrə Dövlət Proqramı" hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir. "Təhsil haqqında" qanuna edilmiş dəyişikliklərə əsasən, beynəlxalq olimpiada qaliblərinin istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qaliblərinin müvafiq ixtisas üzrə müsabiqədənkənar ali məktəblərə qəbulu təsbit edilmişdir.

Şagirdlərdə məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf etdirmək, tədqiqatçılıq bacarıqlarını formalaşdırmaq, innovasiyaları mənimsəmək və tətbiq etmək, onların yüksək texnoloji ixtisaslara marağını artırmaq məqsədilə ötən tədris ilində Bakı və Gəncə şəhərlərinin 71 ümumtəhsil məktəbində 26 min şagird cəlb edilməklə "Rəqəmsal bacarıqlar" layihəsinə başlanmışdır. Elektron təhsil texnologiyalarının tətbiqi məqsədilə "Elektron məktəb" layihəsi 50 təhsil müəssisəsində də davam etdirilmişdir.

Azərbaycan təhsilində dünya təhsil standartlarına uyğun maliyyələşdirmə modelinin qurulması da bu gün ölkəmizdə həyata keçirilən strateji təhsil islahatlarının mühüm hədəflərindəndir və onlara doğru da beynəlxalq təcrübəyə uyğun ardıcıl addımlar atılır. Müvafiq strategiya çərçivəsində bir sıra innovativ layihələr gerçəkləşdirilir. O cümlədən 2014-cü ildən başlayaraq Azərbaycan Respublikasının ali təhsil müəssisələrində savadlı, bacarıqlı və hazırlıqlı tələbələrdən ibarət SABAH qrupları təşkil edilmişdir.

## SABAH qrupları və xaricdə təhsil

2014-cü ildə ali təhsil sahəsində ilk dəfə olaraq yeni məzmun və tədris texnologiyaları əsasında SABAH layihəsinin həyata keçirilməsinə başlanmışdır. Hazırda SABAH qrupları 12 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 39 ixtisas və 2300-dən artıq tələbəni əhatə edir. Son iki ildə SABAH qruplarını 1572 məzun bitirmişdir və ilkin təhlillərə əsasən onların 37 faizi təhsillərini ölkədə, 17 faizi xaricdə magistratura səviyyəsində uğurla davam etdirir, qalan hissəsi isə ixtisasları üzrə əmək fəaliyyətinə başlamışdır.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 3558 nəfər dünyanın nüfuzlu universitetlərində təhsil almaq üçün təqaüd qazanmışdır. Eyni zamanda, ayrı-ayrı ölkələrlə imzalanmış hökumətlərarası sazişlərə əsasən ayrılmış kvotaya uyğun olaraq hazırda ümumilikdə 535 nəfər azərbaycanlı tələbə müvafiq ölkələrin büdcəsi hesabına mühəndislik, kompüter elmləri, nanotexnologiya, kənd təsərrüfatı və digər ixtisaslar üzrə təhsil alır. Hazırda bir neçə ölkənin nüfuzlu universitetlərinin Azərbaycanda filialları açılmışdır. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, M.Seçenov adına I Moskva Tibb Universitetinin Bakı filialları uğurla fəaliyyət göstərir. Eyni zamanda, beynəlxalq ikili diplom proqramlarının tətbiqinə başlanmışdır. Məsələn, indi Azərbaycan Turizm və Menecment Universiteti Avstriyanın Krems Tətbiqi Elmlər Universiteti, Bakı Ali Neft Məktəbi Böyük Britaniyanın Heriot-Vat Universiteti, ADA Universiteti ABŞ-ın Miçiqan Dövlət Universiteti və Niderlandın Maastrixt Menecment Məktəbi ilə, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Fransanın Strasburq Universiteti ilə ikili diplom proqramlarını tətbiq edir.

Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə də təhsil məsələlərinə xüsusi yer ayrılmış, strateji yol xəritələrindən biri isə məhz peşə təhsili və təliminin inkişafına həsr edilmişdir.

Bütün bunlar zamanın çağırışlarıdır. Üstəlik, müasir dövrün insanının fəaliyyət hüdudları təkcə milli məkan çevrəsində məhdudlaşıb qalmır. Qloballaşan dünyamızda hər bir kəs Yer kürəsinin istənilən məkanında çalışmaq imkanına malikdir. Qlobal əmək bazarı çalışmaq potensialı olan insanlara, demək olar ki, qeyri-məhdud şəraitlər yaradır. Bu imkanlardan faydalanmaqdan ötrü sadəcə olaraq rəqabətqabiliyyətli mütəxəssis kimi yetişmək lazımdır. Eyni zamanda, indi dünya iqtisadiyyatı ölkələrin, mövcud iqtisadi subyektlərin bir-birinə elə sıx inteqrasiyasına əsaslanır ki, bu mürəkkəb mexanizmin işlək bir hissəsi kimi çalışıb uğur qazanmaqdan ötrü mütləq rəqabətqabiliyyətli mütəxəssislərə, innovasiyalara, müasir dəyərlər yaratmağa qabil insan kapitalına malik olmalısan.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" isə bu yöndə atılan və böyük nailiyyətlərlə müşayiət olunan tarixi addımların davamıdır.

## Gələcəklə bağlı aydın baxışlar

Yeni dövlət proqramının məqsədləri kifayət qədər aydındır. Sənəddə irəli sürülən vəzifələrin icrası "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində əldə olunan təcrübə və nailiyyətlərin qorunması və inkişafına xidmət edəcək. Bu nailiyyətlərdən faydalanaraq, müasir rəqabət qabiliyyətinə malik insan resurslarına ehtiyac təmin olunacaq. Yüksəkixtisaslı mütəxəssislərin ölkəmizdəki ali təhsil müəssisələrində hazırlanması yolu ilə insan kapitalı dayanıqlı şəkildə inkişaf etdiriləcək. Eyni zamanda, aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanları hər bir Azərbaycan vətəndaşı üçün əlçatan olacaq.

Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

Ali təhsil müəssisələrinin inkişafına dəstək verilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilərək tətbiqi sənəddə vacib prioritet kimi irəli sürülmüşdür. ABŞ, Almaniya, Avstraliya, Böyük Britaniya, Fransa və Yaponiya kimi ölkələrdə aktuallaşmış transmilli təhsil modelinin Azərbaycan Respublikasında tətbiqi uğurlu nəticənin əldə olunmasına şərait yaradacaqdır. Bu baxımdan beynəlxalq ikili diplom proqramlarının ölkəmizdə tətbiqinin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə ali məktəblərimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin proqramlarına uyğun olaraq təşkili təmin ediləcək. Bu sahədə bəzi ali təhsil müəssisələrinin mövcud təcrübəsinin daha da genişləndirilməsi yaxın perspektivdə ölkənin təhsil sisteminin inkişafına, beynəlmiləlləşdirilməsinə və təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsi kimi əsas məqsədlərə nail olunmasına imkan verəcək.

Beynəlxalq ikili diplom proqramları yolu ilə əcnəbi professor-müəllim heyətinin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində əmək fəaliyyətinə cəlb olunması müasir tədris texnologiyalarının daha sürətli yayılmasına şərait yaradacaq, təhsillərini Azərbaycanda davam etdirən gənclərimizə yeni imkanlar açacaq. Əcnəbi mütəxəssislərin müəllimlərimizlə birgə davamlı fəaliyyətinin qurulması onların ölkəni tərk etdikdən sonra belə təhsil sisteminə töhfə vermələrini təmin edəcək. Nəticədə ali təhsil müəssisələrinin müasir elmi-tədqiqat və innovasiya mərkəzlərinə çevrilməsi prosesi sürətlənəcək. Onların dünya reytinqində irəliləməsi təmin olunacaq.

Bütün bunlar Azərbaycanın gələcəklə bağlı aydın baxışa malik olduğunu və özünü qloballaşan dünyanın uğurlu mənzərəsinə yüksək həssaslıqla hazırladığını göstərir. Bu uzaqgörən və peşəkar yanaşma müstəqil dövlətimiz üçün möhtəşəm bir gələcək yaradır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN YANVAR AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 17 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 21 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 28 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 18 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 16 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 18 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 16 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 28 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 23 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 24 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 15 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 28 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 29 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 17 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 29 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 3 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 4 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 7 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 10 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 9 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 14 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 4 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18.00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır. Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Telefonlar:** (012) 510-99-38
(012) 510-89-14
(012) 492-74-05

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# Qəlbi Qarabağla döyünən pedaqoq

Bakı Dövlət Universiteti Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Rasim Süleymanov ömrünü təhsilə, elmə həsr etmiş, bu sahədə uğurlar qazanmış dəyərli ziyalılarımızdan biridir.

Həyatda hər kəsin öz qisməti, öz taleyi var. Bu tale, bu qismət insanı özündən xəbərsiz keşməkeşli ömür yollarından keçirir, gözlənilməz imtahanlara çəkir. Bu bənzərsiz həyat axarında o öz amalı uğrunda mübarizələr burulğanında kədərə də tuş gəlir, sevinci də dadır, bəzən istəkləri yarıda qırılır, bəzən arzu-diləklərinə də qovuşur...

Ürəyinin diktəsi ilə taleyinin bəxşişi, məramı, məqsədilə əsrarəngiz ömür yollarının səmti bir çox məqamlarda üst-üstə düşən tanınmış alim-pedaqoq Rasim Süleymanov 1980-ci illərin əvvəllərində Bakı Dövlət Universitetində mənim müəllimim olub. Tələbkarlığı, obyektivliyi ilə yanaşı, sadə, qayğıkeş, xeyirxah müəllim kimi də tələbələrin rəğbətini qazanıb.

Rasim İmamqulu oğlu Süleymanov 1948-ci ilin payızında Tərtər rayonunun Düyərli kəndində dünyaya göz açıb. Şuşa şəhər 2 nömrəli internat məktəbində və Tərtər şəhər 2 nömrəli tam orta məktəbdə təhsil alıb. Sonralar taleyinə nur ələyəcək mənəvi zənginliyinin, daxili bütövlüyünün bünövrəsi də elə bu doğma yerlərdə, müqəddəs ocaqlarda formalaşıb.

Ana yurdda mədəniyyətə, sözə, biliyə, elmə verilən yüksək qiymət Rasim Süleymanovu öz cazibəsinə alaraq Azərbaycanın ilk elm və təhsil ocağına - Bakı Dövlət Universitetinə gətirib. 1970-1975-ci illərdə BDU-nun Kitabxanaçılıq fakültəsində kitabşünaslıq ixtisası üzrə təhsil alıb. Düşdüyü elm, təhsil və mədəni mühitin təsiri sayəsində yaşı minillərlə ölçülən kitab aləminin sirlərinə yiyələnməyə, yüksək mənəvi amalları, bəşəri dəyərləri hər şeydən uca tutmağa çalışıb.

BDU-nu fərqlənmə diplomu ilə bitirəndən sonra bir müddət Dövlət Mətbuat Komitəsi sistemində işləyən Rasim Süleymanovun kitabşünaslıq elminə olan marağı onu bu sahədə geniş araşdırmalar aparmağa sövq edib. Bu amalla BDU-nun aspiranturasında kitabşünaslıq ixtisası üzrə əyani təhsil alan ilk aspirant kimi adını tarixə yazıb. 1980-ci ildən isə BDU-da müəllim işləyə-işləyə elmi tədqiqatlarını davam etdirib, kitabşünaslıq elminə daha dərindən bələd olmaq üçün fasiləsiz mütaliə ilə məşğul olub, dünyagörüşünü, həyata baxışını zənginləşdirib.

Uzun illər ərzində çəkdiyi əziyyət bəhrəsini 1991-ci ildə verib: tanınmış kitabşünas-alim Hacı Həsənovun elmi rəhbərliyi ilə "Rus bədii ədəbiyyatının Azərbaycanda nəşri məsələləri (1920-1970-cı illər)" mövzusunda namizədlik dissertasiyasını M.F.Axundov adına Azərbaycan Dövlət Rus Dili və Ədəbiyyatı İnstitutunda (indi Bakı Slavyan Universitetində) müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alıb.

Dosent Rasim Süleymanov 1990-cı illərdə BDU-nun tədris işləri üzrə birinci prorektorun müavini, magistratura bölməsinin rəhbəri və rektorun köməkçisi, daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası rektorunun məsləhətçisi və həmin ali məktəbin Böyük Elmi Şurasının məsul katibi vəzifələrində çalışıb.

2003-2013-cü illərdə Azərbaycan Respublikası təhsil nazirinin köməkçisi və kollegiyanın katibi olub. Dosent Rasim Süleymanov 2011-ci ildən dövlət qulluğunun müşaviridir.

Geniş yaradıcılıq diapazonuna malik alim-pedaqoqun qələmindən indiyə qədər 15 kitab, 70-dən çox elmi məqalə çıxıb. Onun yazdığı elmi əsərlər tələbə və müəllimlər üçün mühüm dəyərə malikdir.

Bu baxımdan dosent Rasim Süleymanovun 2015-ci ildə çapdan çıxmış "Rus bədii ədəbiyyatının Azərbaycanda nəşri (1920-1970-ci illər)" adlı monoqrafiyası adıçəkilən sahəyə həsr olunmuş fundamental araşdırmalardan biridir.

Dosent Rasim Süleymanovun adıçəkilən monoqrafiyasının "Rus bədii ədəbiyyatının nəşrini şərtləndirən amillər" adlanan birinci bölməsində 1920-1970-ci illərdə Azərbaycanda nəşriyyatçılıq fəaliyyətinin genişlənməsi, onun maddi-texniki bazasının formalaşması və elmi müstəvidə bu sahənin tədqiqata cəlb edilməsi kimi problemlər ətraflı təhlil olunmuşdur. Eyni zamanda həmin dövrdə respublikamızda ümumiyyətlə kitab nəşrinin həm ad, həm tiraj, həm də orta çap vərəqi etibarilə dinamik inkişafının ayrı-ayrı cədvəllərdə statistik məlumatlar şəklində verilməsi əsərin mahiyyətini xeyli artırır.

Monoqrafiyada göstərilir ki, tədqiqata cəlb olunan dövrdə Azərbaycanda rus bədii ədəbiyyatından tərcümə olunmuş 13 milyon nüsxə tirajla 1020 adda kitab nəşr olunmuşdur.

Rasim Süleymanov təhsildə kamilliyə can atan, oz sahəsinə dərindən bələd olan pedaqoq kimi də neçə-neçə gəncin səviyyəli mütəxəssis, vətənpərvər vətəndaş, xeyirxah insan kimi formalaşmasına əvəzsiz töhfələr verib.

Elmi yaradıcılığında ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği mövzusu mühüm mərhələ təşkil edir. O hələ 2003-cü ildə Kiyev şəhərində Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda maraqlı məruzə ilə çıxış edib. İndiyə qədər alim bu sahəyə dair üç kitab və 30-dan çox elmi məqalə dərc etdirib. "Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" adlı fundamental monoqrafiyası isə çap ərəfəsindədir.

Monoqrafiyada Azərbaycan elmini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən və onu böyük məhəbbətlə sevən və yüksək qiymətləndirən ulu öndər Heydər Əliyevin Azərbaycan kitab mədəniyyəti, kitabçılıq işi, kitab və onun nəşri məsələləri ilə əlaqədar dahiyanə və müdrik fikirləri, qayğısı, eyni zamanda onun zəngin irsi və ümummilli liderə həsr olunmuş fundamental kitablar araşdırılmış və tədqiq edilmişdir.

Kitabda respublikamızda və dünyada görkəmli alimlərin və yaradıcı ziyalıların Heydər Əliyevə və onun əsərlərinə həsr etdikləri fundamental monoqrafiyalar və elmi əsərlərin gələcək nəsillərə çatdırılması məsələləri də ümumiləşdirilmişdir.

Dosent Rasim Süleymanovun tərtib etdiyi "Ulu öndər Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri" adlı kitabı Kitabşünaslıq və nəşriyyat işi kafedrasının qərarı ilə iki dəfə nəfis şəkildə işıq üzü görmüşdür. Burada Azərbaycan tarixini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, onu böyük məhəbbətlə sevən və yüksək qiymətləndirən ümummilli lider, müstəqilliyimizin memarı, dünya şöhrətli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin kitab və kitab



nəşri haqqında müdrik fikirləri toplanmışdır.

Dosent Rasim Süleymanovun fəaliyyətində Heydər Əliyevin vaxtilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasına hədiyyə verdiyi şəxsi kitablarının müxtəlif elm və təhsil ocaqlarında sərgi-konfranslarının təşkil edilməsi kimi ideoloji iş mühüm yer tutur. Bu sırada xüsusilə Azərbaycan Ordusunun erməni işğalçılarına qarşı qalibiyyətli Aprel döyüşləri şəraitində, yəni 18-19 aprel 2016-cı ildə Tərtər şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi şəxsi kitabları" mövzusunda keçirilmiş sərgi-konfrans daha böyük əhəmiyyət kəsb edir.

Mədəniyyət və Turizm Nazirliyi, Tərtər Rayon İcra Hakimiyyəti və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə keçirilən həmin konfransda dosent Rasim Süleymanovun "Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" məruzəsi böyük maraqla dinlənilmişdi.

Elə bir dərs olmaz ki, o, tələbələrinə Qarabağ münaqişəsi ilə bağlı bir neçə cümlə məlumat verməsin, dediklərini tədris prosesi ilə əlaqələndirməsin. Azərbaycan Respublikasının tarixi, bugünü, gələcəyi haqqında çıxışları vətənpərvər alim-pedaqoqun ömür kredosunun bünövrəsində dayanır.

Rasim Süleymanov Azərbaycanda, eləcə də Rusiya, Türkiyə, İspaniya, Belarus, Litva, Ukrayna, İran, Gürcüstan və digər xarici ölkələrdə beynəlxalq elmi konfransların iştirakçısı kimi universitetimizi yüksək səviyyədə təmsil edib, kitabşünaslıq elminin aktual problemləri mövzusunda maraqlı çıxışları ilə rəğbət qazanıb.

Hazırda Rasim Süleymanov Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosentidir. Eyni zamanda 2015-ci ildən "Kitabşünaslıq və Redaktor Sənəti" elmi-nəzəri və təcrübi-metodik jurnalının redaktorudur.

Rasim Süleymanov səmərəli elmi-pedaqoji fəaliyyətinə görə Təhsil Nazirliyinin Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi fəxri adı, Bakı Dövlət Universitetinin "Xatirə Medalı" və başqa mükafatlarla təltif olunub.

Keçmişdən adətə çevrilən ənənədir: yubilyarın doğmaları, dost-tanışları məqamı çatanda onu təbrikə gəlir, ürək sözlərini bildirir, sovqat gətirirlər. Rasim müəllimin yubileyi də bu baxımdan rəngbərəngdir. Amma çoxlarının qismətinə yazılmayan bir fərq var: Tanrı sovqatı!.. Bilirsiniz necə?.. Rasim müəllimin ömür-gün yoldaşı Züleyxa xanımla birgə boya-başa çatdırdıqları yeganə oğulları Rüfət hələ gənc mütəxəssis olsa da, Türkiyədə, Almaniyada təcrübə keçmiş həkim-cərrah kimi nüfuz qazanmaqdadır. Rüfət sevib-seçdiyi Ülviyyə xanımla ailə quranda onlara xeyir-dua verən, toylarında qol götürüb oynayan doğmaların arasında biz də olmuşuq. Elə bu günlərdə uca Tanrının öz sevimli bəndələri Rasim müəllimlə Züleyxa xanıma əkiz oğul nəvələri bəxş etməsini sözlə necə ifadə etmək olar ki?!. Mayası halallıqla yoğrulmuş bir ocağa dünya boyda sevinc gətirmiş Zaurla Uğurun nənə-babasının şadlığından müqəddəs nə ola bilər ki?!.

Zənnimizcə, ən böyük mükafat Tanrının ona bəxş etdiyi bu ömrü halallıqla, ürək açıqlığı ilə, nikbinliklə yaşamasıdır. Ömrün yetmişinci baharını, həyatın müdriklik çağını alnıaçıq-üzüağ qarşılayan Rasim Süleymanova bu halal həyat yollarında möhkəm cansağlığı, daha böyük elmi uğurlar arzulayırıq!..

***Knyaz ASLAN,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent***

# Memarlıq abidəsi - incəsənətin tarixi səsi

## 3 korpus, 18 min incəsənət incisi







*Əvvəli 1-ci səh.*

Burada ayrı-ayrı vaxtlarda müxtəlif idarə və təşkilatlar da özlərinə sığınacaq tapmışdı. 1936-cı ildə əsası qoyulan binada 1951-ci ildən Milli İncəsənət Muzeyi də fəaliyyət göstərməyə başlayıb. Burada çoxlu sayda qiymətli maddi-mədəni sərvətlərin yerləşdirilməsi və ekspozisiyasının ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı daha da artırıb. Zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin toplandığı binanın təmiri zərurətini yaradıb.

### De Burun malikanəsi - Mariinski Qadın Gimnaziyası

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Mariinski Qadın Gimnaziyası adlanan birinci korpus 2009-cu ilin sentyabrında əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilib. 2014-2018-ci illərdə isə muzeyin De Burun malikanəsi korpusunda İtaliya və Azərbaycan mütəxəssislərinin birgə səyləri ilə təmir-bərpa işləri həyata keçirilib. Əvvəlcə binada xüsusi tədqiqat aparılıb: onun fiziki və texniki vəziyyəti öyrənilib. Ölkə əhəmiyyətli bu memarlıq abidəsinin tavan və divarlarında mövcud yapma rəsm, bəzək və digər işlər ilkin vəziyyətə gətirilib. Memarlıq və bəzək elementləri təmizlənib, bərkitmə işləri yerinə yetirilib. Uzun illər ərzində cari təmir işləri aparmaqla tavan və divarlarda yeddi qat üst-üstə vurulan boya xüsusi texnologiya ilə təmizlənərək birinci rəng qatı müəyyənləşdirilib.

Əsaslı təmirdən sonra dövlət başçısı İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva muzeylə yaxından tanış olublar. Yeni yaradılan şərait sərgi salonlarında yerləşdirilən əsərlərin bütün təsiredici amillərdən qorunmasını və təhlükəsizliyini təmin edir, bununla yanaşı, muzeyə gələnlərin baxdıqları əsərlərdən zövq almalarına şərait yaradır.

Binanın memarlığı və qədimliyi saxlanılmaqla həm texniki, həm də texnoloji baxımdan lazım olan innovativ və yeni funksionallığı təmin edilib. Yenidənqurma və əsaslı təmir işləri ilə yanaşı, ekspozisiya zalları genişləndirilib, binanın seysmik davamlılığı artırılıb. Rəngkarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələri nümayiş olunan, on səkkiz mindən çox eksponatın saxlanıldığı Milli İncəsənət Muzeyinin üçüncü korpusu da zənginliyi ilə diqqəti cəlb edir. Burada 2 mindən çox eksponat saxlanılır. Muzeyin binaları arasında mərkəzləşdirilmiş giriş yaratmaq üçün 2013-cü ildə açılışı olan keçid korpusu da var.

Xüsusi sifariş edilmiş güzgülər, çıraqlar və sobalar bu incə zövqlə bəzədilmiş məkana bir qədər də gözəllik verir. Muzeydə dünya incəsənəti nümunələri də nümayiş olunur. Ekspozisiya planına əsasən, kolleksiyanı Qərbi Avropa, o cümlədən İtaliya, Hollandiya, Almaniya, Fransa, həmçinin Rusiya və Çin, Türkiyə, İran və Hindistan da daxil olmaqla Şərq incəsənəti təşkil edir. Yeni ekspozisiyada ilk dəfə olaraq qədim dünya incəsənəti də təqdim olunur: burada qədim Misir, Yunanıstan, Roma və İran incəsənətləri ilə yaxından tanış olmaq üçün şərait yaradılıb. Onu da deyək ki, Fransa zallarında ilk dəfə olaraq fransız impressionistlərin əsərlərini görmək mümkündür. Bundan başqa, muzeyin ekspozisiyasında Rusiya avanqardı ilə yanaşı, çini məmulat və əsərləri də seyr etmək imkanı olacaq. Təqdim olunan əsərlərin zənginliyinə və unikallığına görə bu məbədi dünyanın istənilən muzeyi ilə müqayisə edə bilərik.

Nümayiş etdirilən zəngin kolleksiya ilə yaxından tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva klassika və müasirliyin, milli və Avropa incəsənətinin qovuşduğu mədəniyyət ocağının fəaliyyətinə uğurlar arzulayıblar.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Sözün sehri

## 6 nömrəli respublika xüsusi internat məktəbində Yeni il şənliyi keçirildi











*Biri var idi, biri yox...*

*Uşaqların səbirsizliklə gözlədikləri şaxtalı qış günlərindən biri idi... Və bu qış gününə təntənə ilə hazırlaşmış isti bir yuvadan xeyli hay-küy yüksəlirdi...*

*Rəssam meyvələrin şəklini çəkmək istəyir, meyvələr isə sanki bir-biri ilə bəhs edirdi... Almaya söyləyirdilər: "Yaxşı meyvə olsaydın, adını alma yox, al qoyardılar...", heyva cidd-cəhdlə sübut etməyə çalışırdı ki, soyuqdəymənin dərmanıdır... Gilas isə...*

*Bir tərəfdə zər qanadlı kəpənəklər, şələquyruq tülkülər, nərildəyən pələnglər...*

*Başqa bir tərəfdən isə şən musiqi sədaları ucalırdı. Balaca qızlar və oğlanlar şövqlə şeir deyir, səhnəciklər sərgiləyir, rəngarəng rəqslər edir, müxtəlif dillərdə mahnılar səsləndirirdilər...*

*Təbii ki, bu qış nağılının ağbirçək bir nənəsi də var idi və kənardan uşaqların sehrli dünyasını fərəhlə seyr edirdi...*

### O şəhidin ruhu da şad oldu...

Dekabrın 25-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə şəhid Elmar Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli respublika xüsusi internat məktəbində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə "Bir qış günü" adlı şənlik təşkil olunmuşdu.

Şənliyə dəvət olunmuş şəhid Elmarın anası Natella Mirzəyeva tədbirdə çıxış edərək uşaqları təbrik etdi və kövrəkliklə dilə gətirdi ki, "25 ildir ürəyim bu cür sevinməmişdi, bu qədər ildən sonra mənə bu xoş anları yaşatdığınız üçün hər birinizə təşəkkür edirəm, əziz uşaqlar, əminəm ki, bu gün Elmarımın ruhu da buradadır və onun adını daşıyan təhsil ocağında vətənin gələcəyi olan bu cür istedadlı, qabiliyyətli uşaqları görüb çox şad olub..."

Natella nənə şənliyə sovqatla gəlmişdi. O, Prezident İlham Əliyevin sərəncamına əsasən şəhid ailələrinə ödənilən yardımdan uşaqlara xeyli Yeni il hədiyyələri də almışdı

- Aparıcı olmaq istəyirəm... İstəyirəm atam televiziyadan mənə baxıb qürur duysun, görsün ki, oğlu necə gözəl danışır... Həm də şeir deməyi, xüsusilə də Səməd Vurğunun "Azərbaycan" şeirini söyləməyi xoşlayıram...

Nitq qüsurlu 9 yaşlı Novruz arzularını bizimlə bölüşür...

Rəqsləri ilə tədbir iştirakçılarının xüsusi rəğbətini qazanan balaca Vüsalə Sabirabad rayonundan gəlib burada təhsil alır. Dərslərini yaxşı oxuyur ki, böyüyəndə həkim ola bilsin... Ən böyük arzusunu isə Şaxta babaya yazdığı məktubda bu cür ifadə edib: "Şaxta baba, elə et ki, tətil tez gəlsin, anamın yanına gedim... Onun üçün çox darıxmışam..."

### Nitq qabiliyyətləri bərpa olunur...

Məktəbin direktoru Yaqut Müseyibli söhbət zamanı məlumat verdi ki, internatda əsasən nitq qüsurlu uşaqlar təhsil alır. Həmin uşaqların davamlı reabilitasiyadan sonra bir çoxunun nitq qabiliyyəti bərpa olunur: "Məktəbdə təcrübəli loqopedlər çalışır və uşaqlar reabilitasiya oluna bilirsə, zamanla problemləri düzəlir: " Buradakı uşaqlar əsasən aztəminatlı ailələrin uşaqlarıdır. Onlar il boyu Heydər Əliyev Fondunun və Təhsil Nazirliyinin diqqət-qayğısı, nəzarəti altındadırlar".

Məktəbə qəbul fərdidir və uşaqlar Təhsil Nazirliyinin komissiyasının qərarı ilə 1-ci sinfə qəbul olunurlar. Bu ildən isə artıq internat məktəbində hazırlıq sinifləri də fəaliyyətə başlayıb. Burada tam orta təhsil deyil, 9 illikdir. Uşaqlar buranı bitirəndən sonra müəyyən peşə məktəblərinə, ya da orta məktəblərə qəbul olunurlar.

### Məzunları yüksək bal toplayır…

İnternat məktəbin məzunları arasında 500-600-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olunan xeyli sayda tələbə də var.

Onu da qeyd edək ki, internatın məzunları arasında qayıdıb doğma məktəblərində müəllim kimi fəaliyyətə başlayanlar da çoxdur.

Nəvəsi burada 1-ci sinifdə oxuyan Şükufə nənə söyləyir ki, onu məktəbə gətirəndə sözləri tələffüz edə bilmirdi. Qısa müddət ərzində xeyli irəliləyişə nail olub və artıq bütün sözləri aydın şəkildə deyə bilir: "Bu, məni çox sevindirir və nəvəmin gələcəyi üçün böyük ümidlər verir. O, bu məktəbdə daha fəal, ünsiyyətcil olub. Hiss edirəm ki, musiqiyə də həvəsi artıb və ola bilsin ki, gələcəkdə elə bu sahəyə yönəlsin..."

### Daim Mehriban xanım Əliyevanın diqqətindədirlər

Məlumat üçün bildirək ki, internat məktəb (əvvəlki adı Nitqi qüsurlu uşaqlar üçün E.Mirzəyev adına xüsusi internat məktəb) 1979-cu ildə 186 nəfər şagird kontingenti ilə fəaliyyətə başlayıb. 2005-2006-cı tədris ilindən bu məktəb ümumi orta təhsili təmin edən təhsil müəssisəsi kimi fəaliyyət göstərir.

Hazırda məktəbdə 175 nitqi qüsurlu şagird təhsil alır, onlardan 84 nəfəri müəssisədə gecələyir. Şagirdlər 17 sinif üzrə komplektləşdiriliblər. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 62 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. İnternat məktəb Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü ilə əsaslı təmir olunub və müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib. İnternat məktəbin şagirdləri ümumi təhsil almaqla yanaşı, Azərbaycan dekorativ xalq tətbiqi sənətinin çox qədim və geniş yayılmış növlərindən biri olan xalçaçılıq sənətinə də yiyələnirlər.

Bununla yanaşı, internat məktəbdə şahmat, təsviri incəsənət və bədii özfəaliyyət dərnəkləri fəaliyyət göstərir. Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihələrdə fəal iştirak edən məktəb 2016-2017-ci tədris ilindən "Sağlam təhsil - sağlam millət" layihəsinə cəlb edilib.

### Mükəmməl təhsil üçün tam təchizat

Şagirdlər burada ümumi təhsil almaqla yanaşı, loqopedlər tərəfindən müalicə olunurlar. Onlara müalicəvi bədən tərbiyəsi və musiqili ritmik dərslər keçilir.

İnternat məktəbdə yeni korpuslar tikilib, müasir avadanlıq quraşdırılıb.

Üçmərtəbəli tədris korpusu tamamilə yenidən qurulub, müasir sinif otaqları, kompüter, kitabxana, yeni idman zalı, aviasiya bilikləri, rəsm otaqları, xalçaçılıq kabineti, istirahət, şahmat otaqları yaradılıb, mebel və digər lazımi avadanlıqla təmin olunub. Məktəbdə 200 nəfərlik yeni yeməkxana, həkim, inyeksiya otaqları və tibb məntəqəsi fəaliyyət göstərir. Təhsil ocağında şagirdlərin gecələməsi üçün 20 palata, hər biri 60 nəfərlik 2 televizor zalı, 120 nəfərlik akt zalı var.

Məktəbdə ikimərtəbəli yeni tədris-istirahət və məişət korpusları tikilib, ərazidə müxtəlif idman ləvazimatları ilə təchiz edilən futbol, voleybol və basketbol meydançaları inşa edilib. Burada əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb.

### Uğurlu gələcəyin müjdəçiləri...

Yavaş-yavaş musiqinin şən sədaları altında həvəslə rəqs edən, sevinən, əylənən uşaqlarla vidalaşaraq bu təhsil ocağını tərk edirik...

Yeni il yeni istəklər, yeni arzular deməkdir. Burada keçirdiyimiz bir neçə saat ərzində uşaqlarda müşahidə etdiyimiz ruh yüksəkliyi, istedad, həvəs onu deməyə əsas verir ki, onların hər birini uğurlu gələcək, xoş günlər gözləyir...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin təminatı üçün *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT 1.** Bağlama qutularının alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanında yerləşən "Azərpoçt" MMC-dən (əlaqələndirici şəxs: İsmayılov Oktay; telefon: 493-56-00 (240)) ala bilərlər.

**I LOT üzrə - 300 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**"Azərpoçt" MMC**
**Kod: 690001**
**M\H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**S.W.I.F.T: AZPOAZ 22**
**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı:**
**AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1%-i həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **31 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətinə isə möhürlənmiş ikiqat zərfdə **11 fevral 2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **12 fevral 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# İcbari Sığorta Bürosu Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçıların reyestrini təqdim edir

İCBARİ SIĞORTA BÜROSU
Compulsory Insurance Bureau

| Sığortaçının adı | Reyestrə daxil olma tarixi |
|---|---|
| 1. "AXA MBASK" Sığorta Şirkəti ASC | 15 dekabr 2015-ci il |
| 2. "Xalq Sığorta" ASC | 15 dekabr 2015-ci il |
| 3. "AZSIĞORTA" ASC | 16 dekabr 2015-ci il |
| 4. "Meqa Sığorta" ASC | 16 dekabr 2015-ci il |
| 5. "AtaSığorta" ASC | 16 dekabr 2015-ci il |
| 6. "PAŞA Sığorta" ASC | 17 dekabr 2015-ci il |
| 7. "Standard Insurance" Sığorta Şirkəti ASC | 18 dekabr 2015-ci il |
| 8. "Azərbaycan Sənaye Sığorta" ASC | 18 dekabr 2015-ci il |
| 9. "İpək Yolu Sığorta" ASC | 21 dekabr 2015-ci il |
| 10. "Ataşgah" Sığorta Şirkəti ASC | 21 dekabr 2015-ci il |
| 11. "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti" | 22 dekabr 2015-ci il |
| 12. "Qala Sığorta" ASC | 29 mart 2016-cı il |
| 13. "Günay Sığorta" ASC | 25 avqust 2016-cı il |

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankı üçün "korporativ stil" məhsullarının hazırlanması işlərinin satın alınması ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 10 dekabr 2018-ci il tarixli qərarına əsasən "BESTPACK" MMC və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndində məskunlaşmış ailələrə və orada yerləşən "N" saylı səyyar hərbi hissənin heyətinə təqdim ediləcək Yeni il sovqatlarının satın alınması ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 18 dekabr 2018-ci il tarixli qərarına əsasən "Azərbaycan Supermarket" MMC qalib elan edilmişdir. Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycana qarşı dərin kəşfiyyat-casusluq işini ifşa edib

Xarici xüsusi xidmət orqanlarının Azərbaycanda kəşfiyyat fəaliyyətinin təsbit olunması və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən intensiv araşdırmalar davam edir.

Xidmətin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, DTX-də başlanılmış cinayət işi üzrə keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində xarici xüsusi xidmət orqanları nümayəndələrinin illər ərzində Azərbaycanda çoxmərhələli kəşfiyyat işi, bununla əlaqədar qonşu ölkələrin ərazisində məxfi görüşlərin təşkili və Azərbaycan xüsusi xidmət orqanları əməkdaşlarını fərdi əməkdaşlığa cəlb etməyə istiqamətlənən kanalların qurulmasından ibarət dərin kəşfiyyat işi müfəssəl aşkarlanıb. Aidiyyəti şəxslər casusluq formasında dövlətə xəyanət və digər cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilib, xarici xüsusi xidmət orqanları əməkdaşlarının kəşfiyyat işi üçün uydurulmuş və həqiqi şəxsiyyətləri, kəşfiyyat metodikaları aşkarlanıb, əməliyyat-kəşfiyyat işləri ilk mənbəyədək ifşa edilib zərərsizləşdirilib.

Müəyyən edilib ki, xarici xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində, xüsusi təxəllüs verilməklə məxfi əməkdaşlığa cəlb edilmiş Azərbaycan Respublikasının vətəndaşı 1959-cu il təvəllüdlü İsmayılov Zakir Əlibala oğlu keçmiş Milli Təhlükəsizlik Nazirliyində şöbə rəisi və digər məsul vəzifələrdə işlədiyi dövrdə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi və milli maraqları zərərinə fəaliyyət göstərərək, tutduğu vəzifələrə görə ona məlum olan, habelə əldə edə bildiyi əks-kəşfiyyat fəaliyyəti üzrə sənədlər, şəxsi heyət barədə və digər məxfi məlumatları, eləcə də 2015-ci ildən etibarən təqaüddə olduğu dövrdə keçmiş əlaqə və imkanlarından istifadə edərək təhlükəsizlik orqanlarında baş verən dəyişikliklər barədə məlumatları, Azərbaycan xüsusi xidmət orqanlarına qarşı kəşfiyyat işlərinin mümkün üsulları barədə təhlillərini müntəzəm qaydada xarici xüsusi xidmət orqanına təqdim etməklə dövlətə xəyanət edib.

İstintaq zamanı Zakir İsmayılovun xarici xüsusi xidmət orqanları ilə gizli və şifrəli yazışmaları, xarici xüsusi xidmət orqanlarına göndərilmiş sənədlər, gizli toplanılmış məlumatların olduğu elektron daşıyıcılar, səsyazmalar və iş üzrə əhəmiyyət kəsb edən digər çoxsaylı materiallar aşkarlanıb. Zakir İsmayılov Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb edilərək həbs olunub.

Eləcə də müəyyən edilib ki, 1977-ci il təvəllüdlü Yusifzadə Bəhruz Yaşar oğlu təhlükəsizlik orqanlarında xidmətdən ehtiyata buraxıldıqdan sonra xarici ölkələrə səfərlərində əvvəllər məxfi əməkdaşlığa cəlb etdiyi xarici ölkə vətəndaşının vasitəsilə onunla əlaqə quran xarici xüsusi xidmət orqanları əməkdaşları ilə görüşlər təşkil edib, onlar tərəfindən maddi maraq müqabilində əməkdaşlığa cəlb edilib, yenidən Azərbaycan xüsusi xidmət orqanlarından hər hansı birinə işə düzəlməyə cəhd etmək barədə tapşırıq alıb. Bəhruz Yusifzadə göstərilən istiqamətdə fəaliyyət göstərərkən ifşa olunub.

Bəhruz Yusifzadənin casusluq fəaliyyətinə, xarici xüsusi xidmət orqanlarından maddi vəsait qəbul etməsinə dair çoxsaylı video və sair materiallar əldə edilib. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb edilərək həbs olunub.

Aparılan cinayət işi üzrə cinayət əməllərinin törədilməsinə şərait yaradan hallar müəyyənləşib, digər şəxslər müxtəlif cinayət əməllərinə görə məsuliyyətə cəlb edilib. İfşa olunmuş dərin casusluq işi üzrə xarici xüsusi xidmət orqanlarının əldə etdiyi məlumatların mahiyyəti nəzərə alınaraq mümkün nəticələri aradan qaldırılıb.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam edir.

# Paytaxt Yeni ili qarşılayır








Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 2018-ci il 25 dekabr tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmişdir.

2019-cu ilin
İSTEHSALAT TƏQVİMİ

| | YANVAR | FEVRAL | MART | I Rüb |
|---|---|---|---|---|
| Bazar ertəsi | 7 14 21 28 | 4 11 18 25 | 4 11 18 25 | |
| Çərşənbə axşamı | 1 8 15 22 29 | 5 12 19 26 | 5 12 19 26 | |
| Çərşənbə | 2 9 16 23 30 | 6 13 20 27 | 6 13 20 27 | |
| Cümə axşamı | 3 10 17 24 31 | 7 14 21 28 | 7 14 21 28 | |
| Cümə | 4 11 18 25 | 1 8 15 22 | 1 8 15 22 29 | |
| Şənbə | 5 12 19 26 | 2 9 16 23 | 2 9 16 23 30 | |
| Bazar | 6 13 20 27 | 3 10 17 24 | 3 10 17 24 31 | |
| Aylıq iş vaxtı norması, saat | 168 saat | 160 saat | 118 saat | 446 saat |

| | APREL | MAY | İYUN | II Rüb |
|---|---|---|---|---|
| Bazar ertəsi | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | |
| Çərşənbə axşamı | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | |
| Çərşənbə | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | |
| Cümə axşamı | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | |
| Cümə | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | |
| Şənbə | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | |
| Bazar | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | |
| Aylıq iş vaxtı norması, saat | 176 saat | 166 saat | 125 saat | 467 saat |

| | İYUL | AVQUST | SENTYABR | III Rüb |
|---|---|---|---|---|
| Bazar ertəsi | 1 8 15 22 29 | 5 12 19 26 | 2 9 16 23 30 | |
| Çərşənbə axşamı | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 | |
| Çərşənbə | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 | |
| Cümə axşamı | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 | |
| Cümə | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 | |
| Şənbə | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 | |
| Bazar | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 29 | |
| Aylıq iş vaxtı norması, saat | 184 saat | 160 saat | 168 saat | 512saat |

| | OKTYABR | NOYABR | DEKABR | IV Rüb |
|---|---|---|---|---|
| Bazar ertəsi | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | |
| Çərşənbə axşamı | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | |
| Çərşənbə | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | |
| Cümə axşamı | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | |
| Cümə | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | |
| Şənbə | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | |
| Bazar | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | |
| Aylıq iş vaxtı norması, saat | 184 saat | 159 saat | 158 saat | 501 saat |

| | |
|---|---|
| 2019-cu ilin iş vaxtı norması | 1926 saat |
| 2019-cu ilin orta aylıq iş vaxtı norması | 160,5 saat |
| 2019-cu ilin orta aylıq iş günlərinin sayı | 20,17 gün |

# Gələn ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2018-ci il 25 dekabr tarixli 12 nömrəli qərarı ilə 2019-cu ilin iş vaxtı norması və istehsalat təqvimi təsdiq edilib.

Gələn ilin iş vaxtı normasında qeyd olunub ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "2019-cu ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 2018-ci il 19 dekabr tarixli 856s nömrəli sərəncamına əsasən, gələn il yanvarın 1-i və 2-si Yeni il bayramı, 20 Yanvar Ümumxalq hüzn günü, 8 Mart Qadınlar Günü, 20, 21, 22, 23, 24 mart Novruz bayramı, 9 May faşizm üzərində Qələbə Günü, 28 May - Respublika Günü, 5, 6 iyun - Ramazan bayramı, 15 iyun - Milli Qurtuluş Günü, 26 iyun - Silahlı Qüvvələr Günü, 12, 13 avqust - Qurban bayramı, 9 noyabr - Dövlət Bayrağı Günü, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü iş günləri hesab edilmir.

Əmək Məcəlləsinin 105-ci maddəsinin 5-ci hissəsinə və Nazirlər Kabinetinin "2019-cu ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" 2018-ci il 19 dekabr tarixli 856s nömrəli sərəncamına əsasən, 2019-cu ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi ilə əlaqədar beşgünlük iş həftəsində 25, 26 mart, 17 iyun, 11 noyabr tarixləri, altıgünlük iş həftəsində 25 mart tarixi istirahət günləridir.

Gələn il fevral ayı 28 təqvim günündən, il isə 365 təqvim günündən ibarətdir.

Əmək Məcəlləsinin 105-1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab edilmir. Səsvermə günü qanunvericiliyə uyğun olaraq müəyyən edilir.

Seçki Məcəlləsinin 211.1-ci və 213-cü maddələrinə əsasən, bələdiyyələrin səlahiyyət müddəti beş ildir. Bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası təyin edir və bələdiyyə seçkilərinin təyin olunması barədə qərar onun qəbul edildiyi gündən ən geci 2 gün ərzində kütləvi informasiya vasitələrində rəsmi dərc edilməlidir. 2019-cu ilin iş vaxtı normasının hesablanması məqsədilə rəsmi elan olunanadək şərti olaraq istehsalat təqvimində 2019-cu ilin 27 dekabr tarixi iş günü hesab edilməyən bələdiyyə seçkiləri günü kimi nəzərə alınır.

Gələn il beşgünlük iş həftəsində 242 iş günü (onlardan 9-u bayramqabağı, 1-i səsvermə qabağı iş günü), iş günü hesab edilməyən 103 istirahət günü (onlardan 4-ü iş günü hesab edilməyən bayram günləri ilə üst-üstə düşən), iş günü hesab edilməyən 18 bayram (4-ü istirahət günləri ilə üst-üstə düşən), 1 səsvermə günü və istirahət günü ilə üst-üstə düşən 1 ümumxalq hüzn günü var.

2019-cu il üçün 40 saatlıq iş həftəsində iş vaxtının illik norması 1926 saat təşkil edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Müseyib Bayramov Niyazi və Nizami Səfərov qardaşlarına əzizləri

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru Zaur Qasımova atası

**ZABİL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan şəhərindən Hüseyn Məşdi oğlu Əliyev ailəsi ilə birlikdə "Azərbaycan" qəzetinin məsul katibi Elçin Vəliyevə əmisi

**AYDIN VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Mətanət A" şirkətinin rəhbəri Elxan Bəşirov və şirkətin kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8412
Sifariş 3897
Qiyməti 40 qəpik